# QEYRİ-NEFT SƏNAYESİNDƏ YENİ GÜC

Prezident İlham Əliyev bildirib ki, bu sahə ölkə iqtisadiyyatı üçün, xüsusilə ölkəmizin qeyri-neft sektorunun inkişafı üçün böyük əhəmiyyət daşıyır, çox perspektivli sahədir: “Düzdür, maliyyətutumlu sahədir, amma eyni zamanda, ölkəmizdə yeni, müasir sənaye istiqaməti yaradılacaqdır”.

Dəmir filizi, alüminium, mis və qızıl əsas istiqamətlərdir. 2030-cu ilədək dağ-mədən sektorunun ÜDM-ə töhfəsinin 700 milyon manatdan 1,8 milyard manata, illik ixrac potensialının 1,3 milyard manatdan 2025-ci ilin orta dünya qiymətləri əsasında 3,4 milyard manata çatdırılması nəzərdə tutulur.

SƏHİFƏ 4-də



‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

26 SENTYABR ŞƏNBƏ 2026 № 36 (4287)

Qiyməti - 60 qəpik

www.kaspi.az





## UZUNMÜDDƏTLİ TƏRƏFDAŞLIQLARDAN İNVESTİSİYALARA

İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu yeni tərəfdaşlıqların qurulması, investisiyaların cəlb edilməsi və yeni iqtisadi imkanların yaradılması baxımından mühüm platformadır.

SƏHİFƏ 2-də



## QRENLANDİYA MÜBARİZƏSİNDƏ NÖVBƏTİ MƏRHƏLƏ

Avropa və ABŞ arasında Qrenlandiya böhranı sülhlə başa çatıb. Vaşinqton ada üzərində Danimarkanın suverenliyini tanıyıb. Kopenhagen isə ABŞ-nin ada ilə bağlı hərbi planlarına yaşıl işıq yandırıb.

SƏHİFƏ 5-də



## QANUN “OLAR” DEYİR, CƏMİYYƏT QINAYIR

Azərbaycan cəmiyyətində hələ də 50-60 yaşdan sonra qurulan ailə qeyri-adi hadisə kimi qarşılanır. Buna normal yanaşanlar olsa da, çoxluğun bu addımı atanlara münasibəti birmənalı olmur.

SƏHİFƏ 13-də

## SÜBUT OLUNDU Kİ, TARİXİ YALNIZ TARİXÇİLƏR YAZMIR



# ZƏFƏR YOLUMUZA İŞIQ SALAN GÜN

**27 Sentyabr həm də Vətənə olan sevginin, ehtiramın təcəssümüdür. İllər keçəcək, zaman dəyişəcək, lakin Vətən uğrunda şəhid olan qəhrəmanlarımıza olan hörmətimiz, ehtiramımız, onların bizlərə əmanət qoyub getdiyi qalib Azərbaycana olan sevgimiz heç bir zaman dəyişməyəcək.**

### ONLAR QƏLBİMİZDƏ, YADDAŞIMIZDA YAŞAYIRLAR

Altı il öncə, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq başlayan və 44 gün davam edən müharibə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi. Bu qələbə müstəqil və müasir Azərbaycanın tarixində yeni inkişaf mərhələsinin, qalib dövlət səhifəsinin əsasını qoydu.

### İTİRDİKLƏRİMİZİ GERİ QAYTARAN OLDUQ

Bəli, 27 Sentyabr bizlər üçün həm Anım, həm də Qürur günüdür. Çünki Zəfərə aparan yolun başlanğıcı məhz bu gündür. Şəhidlərimiz olsa da, xalq və dövlət olaraq Prezident İlham Əliyevin qətiyyəti, dəmir siyasi iradəsi və liderliyi ilə son 200 ildə heç kimin bacarmadığını bacardıq. İtirən yox, itirdiklərimizi geri qaytaran olduq.

SƏHİFƏ 3-də



## “VƏTƏN DAŞI” FİLMİ TƏQDİM OLUNDU

“Global Media Group” və “Report” İA Vətən müharibəsinin ildönümü ərəfəsində “Vətən daşı” sənədli filmini təqdim edib.

SƏHİFƏ 6-da



## MƏNZİL BAZARINDA DOMİNO EFFEKTİ

Bakıda mənzil əlçatmaz olduqca, tələb tədricən regionlara və Sumqayıt kimi alternativ şəhərlərə yönəlib.

SƏHİFƏ 8-də



## QEYRİ-NEFT-QAZ İXRACINDA REKORD ARTIM

Azərbaycanda qeyri-neft-qaz ixracının 2,8 dəfə artmasında qızıl satışlarının böyük payı olub. Bu dinamikanın davamlı olması üçün yüksək əlavə dəyərli məhsulların istehsalı və ixracın şaxələndirilməsi vacibdir.

SƏHİFƏ 7-də



## TÜRK DÜNYASINA ŞƏXSİYYƏT VƏSİQƏSİ İLƏ SƏYAHƏT

Türk Dövlətləri Təşkilatına üzv ölkələr daha bir yeniliyə hazırlaşırlar. Təşkilata üzv ölkələrin vətəndaşlarının şəxsiyyət vəsiqəsi ilə qarşılıqlı səfər etməsi məsələsi gündəmdədir.

SƏHİFƏ 10-da



## MAŞIN BAZARINDA SƏSSİZ GERİLƏMƏ

Avtomobil idxalının kəskin azalması ilə yanaşı, ikinci əl avtomobil bazarında da qiymətlər aşağı istiqamətdə dəyişib. Hesablamalara görə, avqust ayında ikinci əl avtomobillər iyulla müqayisədə orta hesabla 0,6 faiz ucuzlaşıb.

SƏHİFƏ 12-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## XİN-dən Gürcüstan Patriarxlığına etiraz

Gürcüstan Patriarxlığının Azərbaycanın ərazisində yerləşən Kürmük məbədi ilə bağlı verdiyi son açıqlama Azərbaycan ilə Gürcüstan arasında mövcud olan dostluq, tərəfdaşlıq və mehriban qonşuluq münasibətlərinin ruhuna ziddir. "Report" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında qeyd edilib. Bildirilib ki, Azərbaycan ərazisində yerləşən coğrafi və tarixi toponimlərin digər adlarla təqdim edilməsi qəbuledilməzdir: "Azərbaycan hər zaman Gürcüstanın ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşıb. Eyni zamanda, Gürcüstan tərəfinin də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə eyni münasibət sərgiləməsi iki ölkə arasında formalaşmış strateji tərəfdaşlıq münasibətlərinin mühüm əsasını təşkil edir. Məhz bu baxımdan, Gürcüstan Patriarxlığının Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə münasibətdə ərazi iddialarını ehtiva edən yanaşması anlaşılan deyil".

Bəyanatda vurğulanıb ki, dini qurumların Azərbaycan və Gürcüstan xalqları arasında əsrlər boyu formalaşmış tarixi dostluq və mehriban qonşuluq münasibətlərinə xələl gətirə biləcək yanaşmalardan çəkinməsi vacibdir: "Bununla əlaqədar, Gürcüstan Patriarxlığı tərəfindən Ermənistan kilsəsinin məlum yanaşmalarının təkrarlanması və onun yolu ilə gedilməsi məsləhət görülmür. Azərbaycan ərazisində mövcud olan bütün tarixi, mədəni və dini abidələr Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli irsinin ayrılmaz tərkib hissəsidir".



## Rassell sıralama turunda birinci olub

"Formula-1" üzrə Azərbaycan Qran-prisində sıralama turu başa çatıb. "Report"un məlumatına görə, üç mərhələnin yekununda birinci yeri tutan pilot müəyyənləşib.

Ən yaxşı nəticəni "Mercedes" pilotu Corc Rassell göstərib. "Ferrari"dən Şarl Lekler ikinci, "Maklaren"dən Oskar Piastri üçüncü yeri tutub. Ötən gün üçüncü sərbəst yürüşdə "Red Bull"dan Maks Ferstappen ən yaxşı nəticəni göstərib.

Bundan bir gün əvvəl Corc Rassell ilk və ikinci sınaq yürüşündə birinci olub.

"Formula-2" üzrə Azərbaycan Qran-prisində də birinci əsas yarış başa çatıb. "Rodin Motorsport"dan Aleks Dann bütün rəqiblərini qabaqlayıb. Onun komanda yoldaşı Martinius Stenşorne ikinci, "Dams Lukas Oil" komandasından Dino Beqanoviç üçüncü yeri tutub. İlk üç yeri tutan pilotlara mükafatlar təqdim edilib.

Qeyd edək ki, Azərbaycan Qran-prisində əsas yarış sentyabrın 26-da keçiriləcək.

# UZUNMÜDDƏTLİ TƏRƏFDAŞLIQLARDAN İNVESTİSİYALARA



**İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu yeni tərəfdaşlıqların qurulması, investisiyaların cəlb edilməsi və yeni iqtisadi imkanların yaradılması baxımından mühüm platformadır. Məqsəd konkret layihələr üzrə tərəfdaşlıqlar qurmaq və qarşılıqlı rifaha xidmət edən birgə fəaliyyət mexanizmləri formalaşdırmaqdır.**

Bakıda Prezident İlham Əliyevin himayəsi altında İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (2nd Azerbaijan International Investment Forum – AIIF 2026) işə başlayıb. İki gün davam edəcək forum dünyanın aparıcı investorları, dövlət və beynəlxalq maliyyə institutlarının nümayəndələrini, biznes liderlərini bir araya gətirib.

İqtisadiyyat Nazirliyi və "The European House – Ambrosetti & TEHA Group"un strateji tərəfdaşlığı ilə keçirilən tədbir "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal bağlantı və investisiya sabitliyinin dayağı kimi" mövzusuna həsr olunub. Forum yeni tərəfdaşlıqların qurulması, investisiyaların cəlb edilməsi və yeni iqtisadi imkanların yaradılması baxımından mühüm platformadır. Məqsəd konkret layihələr üzrə tərəfdaşlıqlar qurmaq və qarşılıqlı rifaha xidmət edən birgə fəaliyyət mexanizmləri formalaşdırmaqdır.

### "XARİCİ ŞİRKƏTLƏR MƏNFƏƏTLƏRİNİ YENİDƏN AZƏRBAYCANA YATIRMAĞI SEÇİRLƏR"

Forumda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, Azərbaycan uzunmüddətli tərəfdaşlıqları yeni investisiyalara çevirməyi hədəfləyir.

O vurğulayıb ki, 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış "Əsrin Müqaviləsi" Azərbaycan ilə dünyanın aparıcı enerji şirkətləri arasında güclü əməkdaşlıq modelini bərqərar edib: "Artıq üç onillikdən çoxdur ki, tərəfdaşlarla əl-ələ verib çalışaraq, biz yalnız öz ölkəmizin sosial-iqtisadi inkişafına töhfə verməmişik, həm də regionda və onun hüdudlarından kənarda bir sıra ölkələr üçün etibarlı enerji təchizatçısı kimi çıxış edirik. Uzunmüddətli tərəfdaşlıqlar yeni investisiya və təkrar investisiyalar yaratmağa davam edir. Ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlərin əksəriyyəti mənfəətlərini yenidən bura yatırmağı seçirlər".

Qlobal iqtisadi çağırışlara toxunan nazir qeyd edib ki, son altı ilin təcrübəsi – pandemiya, daşınma axsamaları və geopolitik gərginliklər təchizat zəncirinin davamlılığının və etibarlı tərəfdaşlığın önəmini bir daha göstərib: "Azərbaycanın məqsədi məhz uzunmüddətli tərəfdaşlıq vasitəsilə qazanılmış etimada əsaslanaraq regionlararası əlaqələri möhkəmləndirməkdir".



Pedro Varqas



Nauriel Roubini

### QLOBAL İQTİSADİ ARTIMIN HƏRƏKƏTVERİCİ QÜVVƏSİ

Baş ofisi ABŞ-nin Nyu-York şəhərində yerləşən makroiqtisadi məsələlər üzrə konsaltinq şirkəti - "Roubini Macro Associates"in Baş İcraçı Direktoru (CEO) Nauriel Roubini qeyd edib ki, ABŞ qlobal iqtisadi artımın hərəkətverici qüvvəsi olacaq. Onun sözlərinə görə, 2 aprel tariflərindən və ABŞ-İran münaqişəsindən sonra belə bir hiss var ki, ABŞ istisnaçılığı (müstəsnalığı) bitib, ABŞ dollarının əsas qlobal ehtiyat valyutası kimi rolu şübhə altına düşəcək və buna görə də ABŞ-nin həddindən artıq imtiyazı yox olacaq, ABŞ fond bazarı köpük içindədir və çökəcək, ABŞ tənəzzülə uğrayacaq: "Mən bununla razılaşmıram. Birləşmiş Ştatların tənəzzülə uğrayan bir dövlət olacağına mərc etməyin".

### ARDICIL İSLAHATLAR VƏ SƏMƏRƏLİ RƏHBƏRLİK

"Euronews"un İdarə Heyətinin sədri Pedro Varqas bildirib ki, Azərbaycan möhkəm fundamental baza, ardıcıl islahatlar və səmərəli rəhbərlik sayəsində dayanıqlı inkişaf göstərməyə davam edəcək. "Mən Bakıdayam və qlobal vəziyyətdən asılı olmayaraq, ayrı-ayrı dövlətlərin uğur qazanacağını müşahidə edirəm. Əminəm ki, bu, məhz ardıcıl inkişaf etməyə davam edəcək region və ölkədir, çünki burada fundamental zəminlər var, islahatlar aparılır və güclü rəhbərlik mövcuddur", - o qeyd edib.

Qeyd edək ki, II Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində 11 sənəd imzalanıb.



# ZƏFƏR YOLUMUZA İŞIQ SALAN GÜN

27 Sentyabr həm də Vətənə olan sevginin, ehtiramın təcəssümüdür. İllər keçəcək, zaman dəyişəcək, lakin Vətən uğrunda şəhid olan qəhrəmanlarımıza olan hörmətimiz, ehtiramımız, onların bizlərə əmanət qoyub getdiyi qalib Azərbaycana olan sevgimiz heç bir zaman dəyişməyəcək.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bəzən bizlər üçün təqvimdə qeyd olunan adi bir gün bütöv bir xalqın, dövlətin taleyini dəyişir, qürurun rəmzinə çevrilir. Aylar, illər keçsə də, bu gün milyonların yaddaşında əbədi həkk olunur. 27 Sentyabr - Anım Günü Azərbaycan xalqı üçün məhz belə bir gündür.

Bu gün yalnız bir müharibənin başlanğıcını xatırladan, Zəfər yolumuza işıq salan tarix deyil. Bu gün həm də Zəfərə aparan yolda, 44 günlük Vətən müharibəsində doğma torpaqlarımızın 35 illik işğal əsarətindən azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımız qarşısında mənəvi borcumuzu dərk etdiyimiz, düşündüyümüz gündür.

### QƏLBİMİZDƏ, YADDAŞIMIZDA YAŞAYIRLAR

Altı il öncə, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq başlayan və 44 gün davam edən müharibə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi. Bu qələbə müstəqil və müasir Azərbaycanın tarixində yeni inkişaf mərhələsinin, qalib dövlət səhifəsinin əsasını qoydu. Lakin Zəfərə aparan yol heç də kitablarda oxuduğumuz, eşitdiklərimiz kimi asan olmayıb. Bu qələbənin əsasında minlərlə igid Azərbaycan övladının qanı, canı bahasına ortaya qoyduğu dəmir və dönməz iradə dayanır. Azərbaycan üç mindən çox qəhrəman övladını Vətənin azadlığı kimi müqəddəs amal uğrunda şəhid verib. Onların hər biri əslində heç də yarımçıq qalmış tale kimi dəyərləndirilməməlidir. Çünki ömürləri qısa olsa da, şəhidlərimiz müstəqil Azərbaycan dövləti, xalqı var olduqca qəlbimizdə, yaddaşımızda yaşayır və yaşayacaq.

## Milyonları birləşdirən müqəddəs amal

Milyonların yaşadığı həyat, sahib olduqları imkanlar fərqli olsa da, 27 Sentyabr tarixi bu qədər fərqli insanları bir amal - Vətənin azadlığı uğrunda birləşdirdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin bir əmri ilə Azərbaycanın on minlərlə igid oğlu 30 illik işğala son qoymaq, Xocalının, Başlıbelin, Qaradağlının və daha neçə-neçə soyqırımların qisasını almaq üçün könüllü şəkildə ordu sıralarına yazıldı. Xalq Liderinə, Silahlı Qüvvələrinə sonsuz dəstəyini göstərdi.

### İTİRƏN YOX, İTİRDİKLƏRİMİZİ GERİ QAYTARAN OLDUQ

Bəli, 27 Sentyabr bizlər üçün həm Anım, həm də Qürur günüdür. Çünki Zəfərə aparan yolun başlanğıcı məhz bu gündür. Şəhidlərimiz olsa da, xalq və dövlət olaraq Prezident İlham Əliyevin qətiyyəti, dəmir siyasi iradəsi və liderliyi ilə son 200 ildə heç kimin bacarmadığını bacardıq. İtirən yox, itirdiklərimizi geri qaytaran olduq. Dünyaya işğalla, soyqırımı ilə, separatizmlə barışmaz mövqenin, Vətən sevgisinin, xalq-dövlət-ordu birliyinin sarsılmazlığının necə olduğunu göstərdik.

### KEÇMİŞİ UNUTMAMALIYIQ

27 Sentyabr yalnız keçmişi xatırlamaq üçün deyil, həm də müharibənin ağır nəticələrini dərk etmək üçün bir fürsətdir. Ermənistan dövlətinin 30 ildən artıq davam edən işğal nəticəsində milyonlarla soydaşımıza yaşatdığı yurd həsrətini, on minlərlə şəhid və günahsız qurbanların xatirəsini bir daha xatırlamaq, keçmişin acı nəticələrindən dərs çıxartmaq üçün bir fürsət. Məhz bu səbəbdən, qələbəmiz haqqında danışarkən bu Zəfərin əsas memarları olan şəhidlərimizin, qazilərimizin fədakarlığını da daim xatırlamalıyıq. Necə ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə səfər edərkən, əlamətdar günlərdə, rəsmi görüşlərdə birmənalı olaraq bu Qələbənin minlərlə Azərbaycan övladının canı, qanı bahasına əldə edildiyini xüsusi olaraq vurğulayır, xatırladır.

### TARİXİ YALNIZ TARİXÇİLƏR YAZMIR

Bir xalqın tarixini yalnız tarixçilər yazmır. Onun əsas daşıyıcıları həmin tarixi yaşayan ailələr, müəllimlər, valideynlər, yazıçılar – hər birimizik. Bu səbəbdən Zəfər yolunun şahidləri olaraq bu gün bizim üzərimizə düşən məsuliyyət, vəzifə ikiqatdır. Gələcək nəsillərə 27 Sentyabr – Anım Gününün mənasını düzgün çatdırmaq tarixi qələbə sevincini bizlərə bəxş edən şəhidlərimiz qarşısında müqəddəs borcumuzdur. Çünki bizdən sonra gələnlər üçün bu günlər sadəcə bir tarix olacaq, şanlı bir tarix. Vətən müharibəsi yolunun əzmini, əziyyətini, bu yolda ortaya qoyulan fədakarlıq nümunələrini daimi yaşatmaq, şəhidlərimizin qısa, lakin mənalı ömür hekayələrini əbədiləşdirmək bu günün vəzifəsidir, yəni bizlərin.

### VƏTƏNƏ OLAN SEVGİNİN, EHTİRAMIN TƏCƏSSÜMÜ

27 Sentyabr həm də Vətənə olan sevginin, ehtiramın təcəssümüdür. Gələcək nəsillər üçün vətənpərvərliyin ən gözəl nümunəsi isə məhz şəhidlərimizin, qazilərimizin qəhrəmanlıq dastanlarıdır. Şəhidlərin xatirəsini yaşadan gənc öz tarixini bilməli, milli dəyərlərinə hörmət etməli və ona miras qoyulanlara layiqincə sahib çıxmalıdır. Çünki şəhidlərin bizə əmanət etdiyi ən böyük dəyər yalnız keçmiş deyil, həm də gələcəkdir.

### DÜNYAYA SÜLH ÇAĞIRIŞI

27 Sentyabr həm də Azərbaycan dövlətinin, xalqının dünyaya sülh çağırışıdır. 30 illik qanlı münaqişə tarixini bağlamaq əzminin, inkişaf, təhlükəsiz həyata verdiyi dəyərin göstəricisidir. Çünki hazırda sahib olduğumuz sülh məhz Azərbaycanın minlərlə şəhid övladının qanı hesabına əldə olunub. Şəhidlərin xatirəsini yad etmək həm də sülhün nə qədər qiymətli olduğunu anlamaq deməkdir.

İllər keçəcək, zaman dəyişəcək. Lakin Vətən uğrunda şəhid olan qəhrəmanlarımıza olan hörmətimiz, ehtiramımız, onların bizlərə əmanət qoyub getdiyi güclü, müstəqil, qalib Azərbaycana olan sevgimiz heç bir zaman dəyişməyəcək.

Vətənimizin azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanlarımızı dərin hörmət və ehtiramla yad edirik!



# QEYRİ-NEFT SƏNAYESİNDƏ YENİ GÜC

“Azərbaycan Respublikasında 2027–2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı” çərçivəsində əsas hədəf daha çox xammal hasil etmək deyil. Məqsəd xammalı ölkə daxilində daha çox emal etmək və daha yüksək əlavə dəyər yaratmaqdır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Son illərdə Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı çoxsaylı dövlət proqramları qəbul olunub. Bu proqramların qəbulunda əsas məqsəd qeyri-neft-sektoru üzrə aparıcı sahələrin müəyyənləşdirilməsi və yaxın illərdə bu istiqamətlərin ölkə iqtisadiyyatının mühüm lokomotivlərinə çevrilməsini təmin etməkdir. Bugünlərdə Prezident İlham Əliyevin sədrliyi ilə “Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı”na həsr olunmuş müşavirə keçirilib.

### MÜASİR SƏNAYE İSTİQAMƏTİ

Müşavirədə çıxış edən Prezident İlham Əliyev bildirib ki, bu sahə ölkə iqtisadiyyatı üçün, xüsusilə ölkəmizin qeyri-neft sektorunun inkişafı üçün böyük əhəmiyyət daşıyır, çox perspektivli sahədir: “Düzdür, maliyyətutumlu sahədir, amma eyni zamanda, ölkəmizdə yeni, müasir sənaye istiqaməti yaradılacaqdır. Beş mindən çox daimi iş yerlərinin açılması nəzərdə tutulur. Bütövlükdə bizim təbii resurslarımızın işlənməsi və onlardan səmərəli şəkildə istifadə olunması, eyni zamanda, istehsal zəncirinin tam yaradılması ölkə iqtisadiyyatını gücləndirəcək”.

### “QƏBUL EDİLMİŞ PROQRAMLAR BU ARTIMI DAİMİ EDƏCƏK”

Dövlət başçısı ölkənin iqtisadi inkişaf templərinə də toxunub. Qeyd edib ki, artım templəri çox da böyük deyil: “Bunun təbii səbəbləri var, ilk növbədə, təbii neft hasilatının aşağı düşməsi. Bizim əsas neft yatağımız “Azəri-Çıraq-Günəşli” artıq 30 ilə yaxındır istismardadır və təbii ki, obyektiv səbəblərə görə hasilatın düşmə templəri də var. Çalışırıq ki, bu templəri sabitləşdirək. Eyni zamanda, əminəm ki, yeni layihələr bundan sonra da Azərbaycanda neft hasilatını lazımi səviyyədə saxlayacaq və ümid edirəm, hətta artım da olacaq. Ancaq bu gün bizim ümumi iqtisadi inkişafımızın, ümumi daxili məhsulumuzun 1,2 faiz artmasının səbəbi budur. Bu, bizi narahat etməməlidir, çünki bundan daha vacib göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da son 8 ayda, yəni bu ilin 8 ayında 5,4 faiz artım olmuşdur. Yəni qeyri-neft sənayesi sahəsində biz yaxşı nəticələr göstəririk və o cümlədən qəbul edilmiş proqramlar bu artımı daimi və uzunmüddətli edəcək”.



## “Ehtiyatlar tam dəqiqləşdirilməlidir”

Prezident qeyd edib ki, mövcud yataqlar təhlil edilib müasir geoloji üsullarla oradakı ehtiyatlar tam dəqiqləşdirilməlidir: “Çünki sovet dövründə müəyyən rəqəmlər var idi. Amma o dövrdən təxminən 40 il keçib. Həm məlumatlar köhnəlib, həm də bu gün yeni texnologiyalar var ki, heç o vaxt sovet dövründə bu haqda heç kim fikirləşə də bilməzdi”.

Dövlət başçısı bildirib ki, bu proqramın maliyyə təminatı bəllidir, bütün müvafiq qurumlarla razılaşdırılıb: “Amma eyni zamanda, əgər yerli və xarici investorlar maraq göstərsələr, müəyyən faiz səviyyəsində onların iştirakı da mümkündür”. Prezident bildirib ki, proqramın reallaşması nəticəsində yeni güclü sənaye istiqaməti yaradılacaq: “Beş mindən çox, bəlkə də daha çox yeni iş yeri yaradılacaq. İşğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun inkişafı, orada məşğulluğun artırılması daha sürətlə gedəcək. Ölkə büdcəsinə vergilər şəklində böyük vəsait daxil ediləcək, güclü ixrac potensialı yaradılacaq. İndi bunu demək bəlkə də bir qədər tezdir. Amma gözlənilən illik müsbət maliyyə təsiri bir milyard manatdan daha çox olmalıdır. Yəni son rəqəm demək istəmirəm. Amma bunlar milyardlarla manat səviyyəsində ölçülə biləcək layihələrdir”.

### HƏDƏF DAHA YÜKSƏK ƏLAVƏ DƏYƏR YARATMAQDIR

“Azərbaycan Respublikasında 2027–2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı”nın layihəsinin məqsədlərinə gəldikdə isə hədəf daha çox xammal hasil etmək yox, bu xammalı ölkə daxilində daha çox emal etmək və daha yüksək əlavə dəyər yaratmaqdır.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, dəmir filizi, alüminium, mis və qızıl əsas istiqamətlərdir. Eyni zamanda, yeni yataqların iqtisadi dövriyyəyə cəlb edilməsi nəzərdə tutulur. 2030-cu ilədək dağ-mədən və metallurgiya sektorunun ümumi daxili məhsula töhfəsinin 700 milyon manatdan 1,8 milyard manata, illik ixrac potensialının isə 1,3 milyard manatdan 2025-ci ilin orta dünya qiymətləri əsasında 3,4 milyard manata çatdırılması nəzərdə tutulur. 2027–2030-cu illərdə bu nəticələrin əldə edilməsi üçün bu dövr ərzində ümumilikdə 5,3 milyard manat investisiya sözügedən sahəyə yönəldiləcək.

## Digər mühüm üstünlük əsas nəqliyyat dəhlizlərinə çıxışdır

Xatırladaq ki, ölkəmizdə qara, əlvan və qiymətli metallar üzrə təsdiqlənmiş ehtiyatlar mövcuddur. Alüminium, mis və qara metallurgiya üzrə müəyyən istehsal bazası artıq formalaşıb. Enerji infrastrukturu və kadr potensialı da mühüm üstünlükdür. İşğaldan azad edilmiş ərazilərdə yeni resurs imkanları var. Burada nəqliyyat infrastrukturunun inkişafı da yeni layihələr üçün artıq əlavə üstünlük yaradıb. Digər mühüm üstünlüyümüz Azərbaycanın əsas nəqliyyat dəhlizlərinə çıxışıdır. Bu, həm xammalın, həm də hazır məhsulların regional və beynəlxalq bazarlara çıxarılmasını asanlaşdırır.

Proqramın əsas prinsiplərindən biri filizdən son məhsuladək dəyər zəncirinin ölkə daxilində qurulmasıdır. İlk mərhələdə yerli xammal potensialını reallaşdırmaq və mövcud yataqlar üzrə hasilatı artırmaq nəzərdə tutulur. “Dəmirli”, “Söyüdlü”, “Filizçay”, Naxçıvandakı yataqlar və digər perspektivli sahələr hesabına xammal bazasının genişləndirilməsi planlaşdırılır. Növbəti mərhələdə isə məqsəd daha yüksək əlavə dəyərli polad və alüminium məhsulları istehsal etməkdir. Bu məhsullar həm daxili sənayedə istifadə olunacaq, həm də ixrac ediləcək. Proqramın əhatə etdiyi dövrdə Elektroliz zavodunun illik gücünün 50 min tondan 100 min tona, yayma məhsullarının istehsalının isə 20 min tondan 50 min tona çatdırılması nəzərdə tutulur. Bundan əlavə, kalsinasiya və anod bişirmə zavodunun yaradılması, karbon anod bloklarının istehsalı planlaşdırılır. Mis istehsalı da əhəmiyyətli dərəcədə artırılacaq. Qızıl istehsalı isə həm mövcud, həm də yeni layihələr hesabına genişləndiriləcək. Nəticədə mis, qızıl və gümüş üzrə ümumi ixracın 2025-ci ildəki 600 milyon manatdan 2030-cu ildə 1,6 milyard manata çatdırılması gözlənilir.



# QRENLANDİYA UĞRUNDA MÜBARİZƏDƏ NÖVBƏTİ MƏRHƏLƏ

Avropa və ABŞ arasında Qrenlandiya böhranı sülhlə başa çatıb. Vaşinqton ada üzərində Danimarkanın suverenliyini tanıyıb. Kopenhagen isə ABŞ-nin ada ilə bağlı hərbi planlarına yaşıl işıq yandırıb.



AZƏR NURİYEV




Qrenlandiya ətrafında ABŞ ilə Avropa ölkələri arasında mübahisə Donald Trampın "maksimum tələb irəli sürmək taktikası"na uyğun bir sazişlə başa çatıb. Vaşinqton, Kopenhagen və Nuuk təhlükəsizlik sahəsində yeni razılaşma əldə ediblər ki, bu da Danimarkanın suverenliyini qoruyur. Eyni zamanda razılaşma ABŞ-yə adada hərbi mövcudluğunu əhəmiyyətli dərəcədə genişləndirmək yolunu açır, potensial rəqiblərinə isə adaya girişini bağlayır.

### VAŞİNQTONUN "YAZILI RAZILIĞI"

Ağ Evin rəhbəri qeyd edib ki, Vaşinqton Qrenlandiyanın və ABŞ-nin təhlükəsizliyini təmin etmək üçün adada "lazım olan hər şeyi" etmək imkanı əldə edib. Trampın sözlərinə görə, razılaşma həmçinin Qrenlandiyada istənilən hərbi mövcudluğun və ya investisiyanın Vaşinqtonun "yazılı razılığı" ilə həyata keçirilməsini nəzərdə tutur. Bu razılaşma Tramp administrasiyasının Qrenlandiya ilə bağlı əvvəlki ritorikasından fərqli olaraq, məsələnin ərazi əldə edilməsi deyil, ilk növbədə strateji təhlükəsizlik və hərbi iştirak müstəvisinə keçirildiyini göstərir. ABŞ artıq Qrenlandiyada mövcud olan hərbi imkanlarını genişləndirmək və Arktikadakı strateji mövqeyini gücləndirmək niyyətindədir.

### QRENLANDİYANIN TƏHLÜKƏSİZLİYİNƏ "DAİMİ NƏZARƏT"

Razılaşmanın ən mühüm məqamlarından biri Qrenlandiyanın statusu ilə bağlıdır. Tramp razılaşmanın ABŞ-yə Qrenlandiyanın təhlükəsizliyi üzərində "daimi nəzarət" imkanı verəcəyini bildirib. Lakin Danimarka və Qrenlandiya rəhbərliyi bu ifadənin adanın suverenliyinin ABŞ-yə verilməsi anlamına gəlmədiyini vurğulayıb. Danimarkanın Baş naziri Mette Frederiksen razılaşmanın Danimarka Krallığının suverenliyini və ərazi bütövlüyünü, həmçinin Qrenlandiya xalqının öz müqəddəratını təyinetmə hüququnu tanıdığını bildirib. Qrenlandiyanın Baş naziri Yens-Frederik Nilsen də razılaşmanın onların maraqlarını və beynəlxalq əməkdaşlıqdakı yerini nəzərə aldığını açıqlayıb.

## NATO DAXİLİNDƏKİ KƏSKİN MÜNAQİŞƏ ARADAN QALDIRILIR

Beləliklə, hazırkı məlumatlara əsasən, razılaşma Qrenlandiyanın ABŞ-yə birləşdirilməsini və ya onun Danimarkadan ayrılaraq ABŞ-nin tərkibinə keçməsini nəzərdə tutmur. Əksinə, əsas diqqət təhlükəsizlik və hərbi əməkdaşlığın genişləndirilməsinə yönəlib. Razılaşmanın tam mətni isə hələ ictimaiyyətə açıqlanmayıb. Müzakirə olunan daha bir detal – razılaşmada ABŞ raket sistemləri, o cümlədən Trampın yaratdığı "Qızıl Günbəz" HHM-nin elementlərinin adada yerləşdirilməsi ehtimalıdır. Əgər bu planlar sazişin yekun konfiqurasiyasına daxil olarsa, Qrenlandiyanın ABŞ-nin müdafiəsi üçün əhəmiyyəti daha da artacaq.

ABŞ artıq Qrenlandiyanın cənubunda soyuq müharibə dövründən qalan hərbi bazanı bərpa etməyi, həmçinin şərq sahilində daha bir baza yaratmağı planlaşdırır. Bazaların yaradılması ABŞ, Danimarka və Qrenlandiya arasında üçtərəfli sazişdə nəzərdə tutulub.

Sazişin daha bir nəticəsi - NATO daxilindəki kəskin münaqişənin aradan qaldırılmasıdır. NATO üçün belə kompromis ikiqat əhəmiyyət daşıyır. Bu razılaşma Qrenlandiyanın statusu ilə bağlı iki NATO müttəfiqi arasında birbaşa münaqişə təhlükəsini aradan qaldırır və eyni zamanda alyansın şimal cinahını gücləndirir. Əvvəllər müzakirə olunan ABŞ rəhbərliyi altında adada blokun çoxmillətli komandanlığı ideyası göstərir ki, söhbət yalnız ABŞ bazasından deyil, daha geniş təhlükəsizlik arxitekturasından gedir.

### RUSİYA VƏ ÇİNİN MÖVQEYİ NECƏDİR?

Nə Moskva, nə də Pekin ABŞ-nin Qrenlandiya üzərində nəzarət qurmaq perspektivini alqışlayıb. Rusiya Prezidenti Vladimir Putin ilin əvvəlində Kremlin Qrenlandiyada baş verənlərlə əlaqəsi olmadığını və bu mübahisəni Danimarka ilə ABŞ-nin həll etməli olduğunu bəyan edib. XİN rəhbəri Sergey Lavrov da Rusiyanın Qrenlandiyanı ələ keçirmək planlarının olmadığını və Vaşinqtonun bunu əla bildiyini təsdiq edib. Onun sözlərinə görə, adada Rusiyaya qarşı yönəlmiş hərbi potensial yaradılarsa, RF "adekvat əks-tədbirlər" görəcək. RF XİN nümayəndəsi Mariya Zaxarova dəfələrlə vurğulayıb ki, nə Rusiya, nə də Çin heç vaxt Qrenlandiya ilə bağlı aqressiv planlar elan edib.



## SƏNƏD ƏBƏDİ QÜVVƏDƏ OLACAQ

Xatırladaq ki, Nyu-Yorkda BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində ABŞ Prezidenti Donald Tramp, həmçinin Danimarka və Qrenlandiyanın baş nazirləri Mette Frederiksen və Yens-Frederik Nilsen ümumi təhlükəsizliyin möhkəmləndirilməsinə və ABŞ-nin Qrenlandiyada hərbi mövcudluğunun gücləndirilməsinə yönəlmiş saziş imzalayıblar.

Tramp bu sazişin uzun müddət hazırlandığını qeyd edib: "Bu, Avropa və Birləşmiş Ştatlar üçün böyük bir addımdır".

Frederiksen də bu razılaşmanı yüksək qiymətləndirərək sənədin əbədi qüvvədə ola biləcəyini bildirib. Onun sözlərinə görə, saziş ümumi təhlükəsizliyin və çəkindirmə sisteminin gücləndirilməsini nəzərdə tutur, həmçinin tərəflərin rəqiblər qarşısında birlik nümayiş etdirməsini təmin edir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# "VƏTƏN DAŞI" FİLMİ TƏQDİM OLUNDU




**Filmdə antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış Azərbaycanın ilk Komando hərbi hissəsinin qərargah rəisi polkovnik-leytenant Əkrəm Şadmanov və onun ailəsinin həyat hekayəsindən bəhs edilir.**

"Global Media Group" və "Report" İnformasiya Agentliyi Vətən müharibəsi və antiterror tədbirlərinin növbəti ildönümü ərəfəsində "Vətən daşı" sənədli filmini tamaşaçılara təqdim edib.

### "BU KİMİ LAYİHƏLƏR MÜTƏMADİ OLMALIDIR"

Təqdimat mərasimində çıxış edən "Report" İnformasiya Agentliyinin direktoru Fuad Hüseynəliyev bildirib ki, Azərbaycan hər zaman torpaqlarının azad olunmasına, şəhid və qazilərin qəhrəmanlığına həssas yanaşır.

Direktor qeyd edib ki, Vətən müharibəsi və antiterror tədbirlərində Azərbaycan xalqının fədakarlığı, ordunun şücaəti və Ali Baş Komandanın liderliyi barədə layihələr mütəmadi olmalıdır.

Fuad Hüseynəliyev həmçinin "Global Media Group"un rəhbəri Elnur Abdullayevə belə layihələrin təşkilində yaxından iştirak etməsi və dəstəyinə görə təşəkkür edib.

### "İNDİ QARABAĞDA DİRÇƏLİŞ MƏRHƏLƏSİNDƏYİK"

"Report" İnformasiya Agentliyinin baş redaktoru, filmin ssenari müəllifi Namiq Mayılov nümayiş vaxtının təsadüfi seçilmədiyini bildirib. O, sentyabrın 24-də şəhid polkovnik-leytenant Əkrəm Şadmanovun anım günü olduğunu qeyd edib.

Namiq Mayılov artıq müharibənin arxada qaldığına, hazırda bölgədə bərpa-quruculuq işləri getdiyinə diqqət çəkib: "Bu gün biz artıq Qarabağdayıq, orada bərpa-quruculuq işləri həyata keçirirk. İndi Qarabağda dirçəliş mərhələsindəyik".

Şəhid Əkrəm Şadmanovun atası Yunus Şadmanov da öz növbəsində layihədə əməyi keçənlərə təşəkkür edib. O qeyd edib ki, Azərbaycan xalqı yaşadıqca, inkişaf etdikcə, Qarabağı yenidən qurduqca şəhidlərin ruhu şad olacaq.

### POLKOVNİK-LEYTENANT ƏKRƏM ŞADMANOVUN HƏYAT HEKAYƏSİ

Qeyd edək ki, filmdə antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış Azərbaycanın ilk Komando hərbi hissəsinin qərargah rəisi polkovnik-leytenant Əkrəm Şadmanov və onun ailəsinin həyat hekayəsindən bəhs edilir.

Kəlbəcər rayonunun Ermənistan tərəfindən işğalından sonra məcburi köçkün taleyi ilə üz-üzə qalmış Şadmanovlar ailəsi, məhrumiyyətlərə baxmayaraq, doğma yurdlarına qayıtmaq ümidlərini itirmir. Torpaqlarımızı düşməndən azad etmək amalı ilə ailədə iki peşəkar hərbçi böyüyür.

44 günlük Vətən müharibəsi, həmçinin antiterror tədbirləri zamanı Şadmanov qardaşları qəhrəmancasına döyüşərək, bir sıra rayon və kəndlərimizin azad olunmasında fəal iştirak edir, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə orden və medallarla təltif olunurlar. Lakin 2023-cü il sentyabrın 24-də düşməndən azad edilmiş mövqelərə baş çəkməyə gedərkən qardaşlardan biri - polkovnik-leytenant Əkrəm Şadmanov mina partlayışı nəticəsində şəhid olur.



### AZƏRBAYCAN XALQININ YAZDIĞI QƏHRƏMANLIQ SALNAMƏSİ

"Vətən daşı" filmində Əkrəm Şadmanov və ailəsinin həyat hekayəsi üzərindən Azərbaycan xalqının yazdığı qəhrəmanlıq salnaməsi ilə yanaşı, Vətən eşqi və Qələbə sevinci, doğma torpaqları qurub yaratmaq əzmi öz əksini tapıb.

Filmin ideya və ssenari müəllifi Namiq Mayılov, quruluşçu rejissoru Niyam Şirinov, quruluşçu operator və montaj rejissoru Səbuhi Sadiq, baş prodüseri Fuad Hüseynəliyevdir.

"Nizami" Kino Mərkəzində keçirilən təqdimat mərasimində şəhid ailələrinin üzvləri, qazilər, hərbçilər dövlət rəsmiləri, millət vəkilləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, "Global Media Group" 2017-ci ildə təsis edilən aparıcı media şirkətlər qrupudur. Qrupa Azərbaycanda və ölkə xaricində fəaliyyət göstərən televiziya kanalları, informasiya agentlikləri, xəbər portalları, qəzetlər və digər media resursları daxildir.



# SOCAR-ın ABŞ şirkəti ilə əməkdaşlığı müzakirə edilib

"Comstock Resources" şirkəti ilə tərəfdaşlıq Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) ABŞ-də fəaliyyətinin genişləndirilməsi və biznes portfelinin şaxələndirilməsi baxımından yeni imkanlar yaradır. "Report" xəbər verir ki, bu barədə SOCAR prezidenti Rövşən Nəcəf "X" hesabındakı paylaşımında bildirib. O, bu gün 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (2nd Azerbaijan International Investment Forum – AIIF 2026) çərçivəsində ABŞ-nin "Comstock Resources" şirkətinin prezidenti və baş maliyyə direktoru Roland O. Burns ilə görüşüb. "Görüşümüzdə bu yaxınlarda strateji tərəfdaşlıq üzrə Niyyət Məktubunun imzalanmasından məmnunluğumuzu ifadə etdik, sənəddən irəli gələn əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi apardıq", - SOCAR prezidenti vurğulayıb.

Onun sözlərinə görə, bu tərəfdaşlıq SOCAR-ın ABŞ enerji bazarında fəaliyyətinin genişləndirilməsi və biznes portfelinin şaxələndirilməsi baxımından yeni imkanlar yaradır: "İnanıram ki, SOCAR-ın beynəlxalq təcrübəsi ilə "Comstock Resources"un güclü aktiv bazasının bir araya gəlməsi uzunmüddətli dəyərin yaradılması və rəqabət qabiliyyətimizin gücləndirilməsi üçün möhkəm zəmin formalaşdıracaq".

Üç əsrin qəzeti Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1251
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# QEYRİ-NEFT-QAZ İXRACINDA REKORD ARTIM



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Qeyri-neft-qaz ixracının 2,8 dəfə artmasında qızıl satışlarının böyük payı olub. Bu dinamikanın davamlı olması üçün yüksək əlavə dəyərli məhsulların istehsalı və ixracın şaxələndirilməsi vacibdir.

Azərbaycanın qeyri-neft-qaz ixracında bu ilin ilk yeddi ayında yüksək artım qeydə alınıb. Yanvar-iyul aylarında qeyri-neft-qaz ixracının dəyəri 5 milyard 933,2 milyon dollara çatıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 2,8 dəfə, real ifadədə isə 2 dəfə çoxdur. Lakin rəqəmlərin arxasında fərqli mənzərə dayanır. Belə ki, ixrac artımının böyük hissəsi qızıl ixracının kəskin yüksəlməsi hesabına formalaşıb. Bəs qızıl amili nəzərə alınmadıqda qeyri-neft ixracında artım hansı səviyyədədir? Bu dinamika ölkənin ixrac potensialının genişləndiyini göstərirmi? Artımın davamlı olması və yerli məhsulların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılması üçün hansı addımlar atılmalıdır?

## "QEYRİ-NEFT SEKTORUNUN İXRAC İMKANLARI GENİŞLƏNİR"

Millət vəkili Rövşən Muradovun sözlərinə görə, qeyri-neft-qaz ixracının 5 milyard 933,2 milyon dollara çatması əhəmiyyətli göstəricidir. Lakin burada əsas məsələ yalnız yekun rəqəm deyil, artımın hansı mənbələr hesabına formalaşmasıdır: "Cari ildə yüksək dinamikanın əsas amillərindən biri əvvəlki dövrlərdə əldə edilmiş qızılın böyük həcmdə ixracıdır. Bu əməliyyat ümumi göstəriciyə ciddi statistik təsir göstərib. Bununla belə, qızıl amili nəzərə alınmadıqda da qeyri-neft ixracında kifayət qədər güclü artım müşahidə olunur. Qeyri-monetar qızıl ixracı nəzərə alınmadan yanvar-iyul aylarında qeyri-neft ixracı 18,3 faiz artaraq 2,5 milyard dollara çatıb. Aqrar və aqrar-sənaye məhsullarının birgə ixracında isə 22,8 faizlik artım qeydə alınıb. Meyvə-tərəvəz, pambıq məhsulları, alüminium, qara metallar, şəkər, bitki və heyvan mənşəli yağlar kimi müxtəlif məhsul qruplarında da artım olub".



Rövşən Muradov

R.Muradov hesab edir ki, bu göstəricilər qeyri-neft sektorunun ixrac imkanlarının genişləndiyini göstərir: "Daha fundamental göstərici qızılın statistik təsiri aradan qaldırıldıqdan sonra da ikirəqəmli artım tempinin qorunmasıdır. Növbəti mərhələdə əsas məsələ əldə olunan artımın davamlı iqtisadi tendensiyaya çevrilməsidir. Bunun üçün ixrac coğrafiyasının genişləndirilməsi, yüksək əlavə dəyərli məhsulların payının artırılması, xammalın daha dərindən emalına keçidin sürətləndirilməsi, beynəlxalq keyfiyyət və sertifikatlaşdırma standartlarına uyğunluğun gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır".

## NƏQLİYYAT XƏRCLƏRİNİN KOMPENSASİYASI

Deputat qeyd edib ki, logistika və nəqliyyat xərclərinin azaldılması da mühüm amildir: "İxracla bağlı nəqliyyat xərclərinin 70 faizədək hissəsinin kompensasiyasını nəzərdə tutan yeni dövlət dəstəyi mexanizmi sahibkarların daha uzaq bazarlara çıxış imkanlarını genişləndirə bilər. İxracın təşviqi, beynəlxalq sertifikatlaşdırmaya dəstək, sənaye zonalarının inkişafı və yeni logistika imkanlarının yaradılması ilə yanaşı, bu mexanizmlər qeyri-neft ixracının strukturunun daha da şaxələndirilməsinə xidmət edə bilər. Azərbaycan üçün strateji hədəf yalnız ixracın dollar ifadəsində artması ilə məhdudlaşmamalıdır. Əsas məsələ çoxsaylı məhsullara və müxtəlif bazarlara söykənən, yüksək əlavə dəyər yaradan və ayrı-ayrı iri ixrac əməliyyatlarından asılılığı minimuma endirən dayanıqlı ixrac modelinin formalaşdırılmasıdır".

## "İXRAC ARTIMINDA QİYMƏT AMİLİ ƏSAS ROL OYNAYIR"

İqtisadçı Rəşad Həsənov isə qeyri-neft-qaz ixracındakı 2,8 dəfəyə yaxın artımı qiymətləndirərkən daha ehtiyatlı yanaşmanın tərəfdarıdır. Onun sözlərinə görə, artımın 90 faizdən çoxu qeyri-monetar qızıl ixracının payına düşür: "Belə ki, 2026-cı ilin ilk altı ayında Dövlət Neft Fondu tərəfindən 3,5 milyard ABŞ dolları dəyərində qeyri-monetar qızıl ixrac edilib. Bu, təbii və davamlı ixrac axını deyil, müvəqqəti qərarlar nəticəsində nominal ixrac göstəricilərində yaranmış dinamikadır. Dövlət Neft Fondunun hər il eyni həcmdə qızıl ixrac etmək imkanı yoxdur. Bundan əlavə, fond qızıl istehsalçısı deyil. Qızıl alınıb-satıldığı üçün bu əməliyyatdan ölkənin əldə etdiyi gəlir əsasən müəyyən mənfəət marjası ilə məhdudlaşır. Qızıl ixracı nəzərə alınmadıqda da 2026-cı ilin ilk yeddi ayında ixracda təxminən 18,5 faizlik artım müşahidə olunur. Bu, nominal ifadədə 400 milyon dollar, aylıq orta hesabla isə təxminən 60 milyon dollar artım deməkdir".

İqtisadçı hesab edir ki, bu artımın hamısını fiziki ixracın yüksəlməsi kimi qiymətləndirmək olmaz: "Artımın əsas səbəblərindən biri ixrac olunan məhsulların qiymətlərinin yüksəlməsidir. Burada söhbət nominal artımdan, yəni ixrac satışlarından ölkəyə daxil olan valyutanın həcminin artmasından gedir".

## İXRAC STRUKTURUNUN DƏYİŞDİRİLMƏSİ ƏSAS PRİORİTET OLMALIDIR

Ekspertin fikrincə, xüsusilə qeyri-neft və qeyri-ərzaq məhsullarının ixracında yalnız iyun ayında 26 faizlik artım qeydə alınıb: "Yeddi aylıq göstəricilərə əsasən, əsas artım şəkər ixracında - 2,6 dəfə, heyvan mənşəli yağlar və piylərdə - 40 faiz, pambıq ipliyində - 82 faiz, qara metallar və onlardan hazırlanan məmulatlarda - 23 faiz, çay ixracında - 20 faiz, meyvə-tərəvəz ixracında - 16 faiz, spirtli və spirtsiz içkilərin ixracında isə 3 faiz təşkil edib. Qeyd olunan 400 milyon dollarlıq artım da əsasən bu məhsul qrupları üzrə ixrac dinamikasının təsiri ilə formalaşıb. Bu göstəriciləri, əlbəttə, müsbət nəticə hesab etmək olar. Lakin Azərbaycanın qeyri-neft və qeyri-resurs ixracının ümumi həcmi hələ də aşağı səviyyədədir. Bu səbəbdən 18 faizlik artım aylıq orta hesabla 50-60 milyon dollar əlavə gəlir demək olsa da, ölkənin ümumi iqtisadi mənzərəsini ciddi şəkildə dəyişmir".

R.Həsənovun sözlərinə görə, region ölkələrinin iqtisadi strukturu da sürətlə dəyişir. Artıq bəzi ölkələr yaxın gələcəkdə süni intellekt və informasiya texnologiyaları məhsullarının, eləcə də yüksək əlavə dəyər yaradan məhsulların iri ixracatçılarına çevrilməyə hazırlaşırlar: "Azərbaycanda isə ixrac artımı əsasən resurs tutumlu aqrar və ağır sənaye məhsulları hesabına formalaşır".



Rəşad Həsənov



# MƏNZİL BAZARINDA DOMİNO EFFEKTİ



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Bakıda mənzil əlçatmaz olduqca, tələb tədricən regionlara və alternativ şəhərlərə yönəlib. Sumqayıt bu dəyişikliyin ən aydın nümunəsidir. Bakıdakı bahalaşma paytaxtda alıcılığı azaltsa da, Sumqayıt kimi şəhərlərdə tələbi kəskin şəkildə artırır.**

Son illərdə ölkənin daşınmaz əmlak bazarında baş verən kəskin qiymət artımı artıq tək paytaxt Bakı ilə məhdudlaşmır. Bir vaxtlar Bakı ilə müqayisədə "əlçatan alternativ" sayılan Sumqayıtın mənzil bazarı da son aylarda, xüsusilə köhnə tikililərdə müşahidə olunan qiymət artımı ilə gündəmə gəlib. İki ay əvvəl 55-58 min manat civarında təklif edilən köhnə mənzillərin qiyməti qısa müddətdə 60-65 min manatadək yüksəlib. Bu isə mənzil almaq istəyənlər arasında narahatlıq yaradıb.

### "REGİON SAKİNLƏRİ SUMQAYITA YÖNƏLİR"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, müşahidə edilən dinamika bazar prinsipləri üzrə formalaşır. Onun sözlərinə görə, Bakıdakı yüksək mənzil qiymətləri region sakinlərinin Sumqayıta marağını artırır: "Sumqayıt böyük inkişaf ərəfəsindədir. Şəhərin 5-ci, 17-ci, 21-ci və 29-cu məhəllələrində, 2-ci mikrorayonda və Kimyaçılar yaşayış massivində qəzalı binaların söküntüsü başlayıb. Bu da Sumqayıtın simasını dəyişəcək və infrastrukturun inkişafını təmin edəcək. Hazırda Bakıda mənzil qiymətlərinin yüksək olması region sakinlərini Sumqayıta yönəldir. Bu da bahalaşmanın əsas səbəblərindən biridir".

V.Oruc qiymət artımının əsas səbəbləri sırasında tikintinin maya dəyərinin yüksəlməsini və investisiya məqsədli müraciətlərin artmasını da qeyd edir: "Bu, tələbə əsaslanan obyektiv bazar prosesidir. İpoteka ilə alınan mənzillərin çoxluq təşkil etdiyi dövrlərdə belə artımların baş verməsi təbiidir. Bundan əlavə, sentyabr, oktyabr və noyabr aylarında yeni ailələrin qurulması ilə əlaqədar mənzil bazarına müraciətlərin sayı kəskin artır".



Vüqar Oruc

## "Bakıya köçmək üçün "tramplin" kimi baxırlar"

Sumqayıtda 40-50 illik köhnə "Xruşşovka" və "Leninqrad" layihəli mənzillərdə fiziki aşınma nəzərə alındıqda, qiymət artımının səbəbləri maraq doğurur. Mütəxəssis bildirir ki, məsələyə ilk növbədə şəhərin mənzil fondu baxımından yanaşmaq lazımdır. Onun sözlərinə görə, mərkəzə yaxın və əlverişli infrastruktura malik ərazilərdə yerləşən köhnə binalar tələbat görür: "Binanın köhnə və ya istismar müddətinin başa çatmaq üzrə olması həmin mənzillərə tələbin sıfırlanması demək deyil. Yalnız qəzalı və gələcəkdə sökülmə ehtimalı yüksək olan binalara tələb azala bilər. Hazırda Sumqayıtda müəyyən ərazilər istisna olmaqla, köhnə binaların yaxın illərdə sökülməsi planlaşdırılmır. Hətta bir çoxları Sumqayıtdakı mənzillərə Bakıya köçmək üçün bir növ "tramplin" kimi baxırlar".

### SUMQAYIT, GƏNCƏ KİMİ ŞƏHƏRLƏRƏ QİYMƏT TƏZYİQİ MÜŞAHİDƏ OLUNUR

Əmlak eksperti Firdovsi Xəlilov deyir ki, Bakıdan başlayaraq Sumqayıt, Gəncə və digər şəhərlərə qədər daşınmaz əmlak bazarında eyni istiqamətli qiymət təzyiqi müşahidə olunur: "Bunu daha çox domino effekti adlandırardım. Sumqayıtda bu proses bir neçə ildir davam edir. 2018-2020-ci illərdən etibarən şəhərsalma və tikinti qaydalarına nəzarət ciddi şəkildə gücləndirildi. Praktikada əvvəllər bir hektar ərazidə 70-80 min kvadratmetrədək tikinti sahəsi çıxarılan, binaların bir-birinə çox yaxın yerləşdirildiyi layihələrə rast gəlirdik. İndi isə bu cür sıxlığa imkan verilməsi faktiki olaraq çox çətindir və bir hektardan 20-22 min kvadratmetr civarında tikinti əldə edilən layihələr görürük. Şəhərsalma baxımından bu, əlbəttə, müsbət prosesdir. Binalar arasında məsafə, həyət, parklanma, yaşıllıq, işıqlanma və digər standartlar qorunmalıdır. Ancaq bunun iqtisadi tərəfi də var. Eyni torpaq sahəsindən daha az satıla bilən mənzil çıxır və nəticədə hər kvadratmetrin üzərinə düşən torpaq və infrastruktur xərci artır. İkinci mühüm dəyişiklik vergitutma ilə bağlı oldu. 2020-ci ilədək bina tikintisində sahə və zona əmsallarına əsaslanan sadələşdirilmiş vergi mexanizmi mövcud idi. 1 yanvar 2020-ci ildən yeni başlayan layihələr üçün bu sistem ləğv edildi və tikinti şirkətləri ƏDV və mənfəət vergisi rejiminə keçirildi. Hazırda ƏDV 18 faiz, mənfəət vergisi isə mənfəətin 20 faizidir. Təbii ki, bütün bunlar yeni tikilinin maya və satış qiymətinə təsir edən amillərdir. Yeni tikilidə qiymət qalxdıqda proses avtomatik olaraq köhnə mənzil bazarına keçir. Tutaq ki, köhnə mənzil sahibi evini 70 min manata sata və üzərinə müəyyən vəsait qoyaraq yeni tikilidən mənzil ala bilirdi. Yeni tikilinin qiyməti ciddi bahalaşdıqda artıq həmin adam öz evini əvvəlki qiymətə satmaq istəmir, çünki satdıqdan sonra özünə alternativ mənzil ala bilməyəcək. Yeni tikilidən mənzil almağa büdcəsi çatmayan alıcı da köhnə tikiliyə keçir. Beləliklə, yeni tikilidə yaranan bahalaşma həm satıcı, həm də alıcı tərəfdən təkrar bazara ötürülür".



### Bakıdakı mənzillər əlçatmaz olduqda...

Bakıdakı bahalaşmanın birbaşa Sumqayıta və digər regionlara təsir etdiyini vurğulayan ekspert son 7-8 ildə baş verən struktur dəyişikliyinə diqqət çəkib: "2018-ci ildə Bakıda yeni tikililərdə mənzillərin kvadratmetri 800-2000 manat civarında dəyişirdi. Ənənəvi yaşayış massivlərində 1200-1300 manata ev almaq mümkün idi. O zaman regionlarda gəliri artan gənc ailələr investisiyanı Bakıya yönəldirdilər. Son illərdə isə Bakıda qiymətlərin ciddi yüksəlməsi bu modeli dəyişdi. Bakı mənzili əlçatmaz olduqca, tələb tədricən regionlara və alternativ şəhərlərə qayıtmağa başladı. Sumqayıt bu dəyişikliyin ən aydın nümunəsidir. Bakıdakı bahalaşma paytaxtda alıcılığı azaltsa da, Sumqayıt kimi alternativ bazarlarda tələbi kəskin şəkildə artırır".

### ALICILAR NİYƏ KÖHNƏ BİNALARA ÜZ TUTUR?

Alıcıların köhnə binalara üz tutmasının səbəblərinə toxunan mütəxəssis bildirib ki, bu, binaların keyfiyyəti ilə bağlı deyil: "İnsanlar köhnə binanı yenidən yaxşı hesab etdikləri üçün almırlar. Əsas məsələ mənzilin yekun qiymətidir. Məsələn, 32 kvadratmetrlik köhnə mənzilin kvadratı 2000 manat olsa da, ümumi qiyməti 64 min manat edir. Büdcəsi 60–70 min manat olan alıcı üçün yeni tikilidə mənzil tapmaq çətindir".



Firdovsi Xəlilov

## Yeni qaydaların tətbiqi bazarda ətin qiymətinin artımına şərait yarada bilər

# ƏT BAZARI ÜÇÜN YENİ RİSK

Erkən kəsimin qarşısının alınması üçün iri və xırdabuynuzlu heyvanların yaşına, çəkisinə və cinsinə uyğun yeni tələblər hazırlanacaq. Yeni qaydaların ət qiymətlərinə təsir göstərə biləcəyi bildirilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda iri və xırdabuynuzlu heyvanların yaşına, çəkisinə və cinsinə uyğun kəsilməsi ilə bağlı yeni tələblərin hazırlanması gündəmdədir. Bu məsələ “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027–2032-ci illər üçün Dövlət Proqramı”nda əksini tapıb. Sənədə əsasən, ilk növbədə heyvanların erkən yaşda və aşağı çəkidə kəsilməsinə səbəb olan amillər araşdırılacaq. Daha sonra heyvanların növü, cinsi və məhsuldarlıq xüsusiyyətləri nəzərə alınmaqla müvafiq normativ tələblər hazırlanacaq. Tələblərin fermerlərə, xüsusilə kiçik və ev təsərrüfatlarına təsiri də müzakirə mövzusudur. Heyvanların daha uzun müddət saxlanılması yem və qulluq xərclərini artırmaqla yanaşı, ət təklifinin azalmasına və qiymətlərin yüksəlməsinə səbəb ola bilərmi?

### “VAHİD GÖSTƏRİCİLƏRİN TƏTBİQİ NƏZƏRDƏ TUTULMUR”

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən bildirilib ki, iri və xırdabuynuzlu heyvanların kəsiminin tənzimlənməsi prosesinə qabaqcıl beynəlxalq təcrübənin ətraflı araşdırılması ilə başlanılacaq. Dünyada bu sahədə tətbiq olunan uğurlu modellər, standartlar və hüquqi tənzimləmə mexanizmləri təhlil ediləcək, ölkəmiz üçün uyğun təcrübələr əsasında təkliflər hazırlanacaq: “Proses bütövlükdə rəqəmsal nəzarət sistemləri vasitəsilə həyata keçiriləcək. İlkin mərhələdə iqtisadi, bioloji, aqrotexniki və digər amillər araşdırılacaq. Araşdırmaların nəticələrinə uyğun olaraq heyvanların optimal yaş və çəki hədlərinə dair tələblər formalaşdırılacaq”.

AQTA-dan bildirilib ki, Dövlət Proqramında heyvanların cinsi və cins xüsusiyyətləri də xüsusi meyar kimi qeyd olunub. Heyvanların bioloji inkişaf tempi, damazlıq dəyəri və təsərrüfat təyinatı eyni olmadığı üçün bütün heyvanlar üçün vahid göstəricilərin tətbiqi nəzərdə tutulmur: “ Tələblər heyvanların növünə, cinsinə və məhsuldarlıq xüsusiyyətlərinə uyğun olaraq fərqləndiriləcək. Təkliflər hazırlanarkən bu müxtəliflik nəzərə alınacaq. Bu məqsədlə, ilk növbədə, normativ hüquqi bazanın formalaşdırılması ilə bağlı təkliflər hazırlanacaq və mövcud hüquqi aktlar təkmilləşdiriləcək. Müvafiq hüquqi aktlar qüvvəyə mindikdən sonra kəsim məntəqələrində rəqəmsal identifikasiya məlumatları və rəsmi çəkiölçmə sistemləri vasitəsilə qanunvericiliyin tələblərinə riayət olunmasına ciddi nəzarət ediləcək”.

Agentlikdən o da bildirilib ki, proses mərhələli şəkildə həyata keçiriləcək: “Fermerlər və sahibkarlar üçün hazırlıq və adaptasiya dövrü olacaq. Yeni qaydalar hüquqi müstəvidə təsdiqlənməzdən əvvəl və onların tətbiqi zamanı heyvandarlıqla məşğul olan subyektlər üçün geniş maarifləndirmə tədbirlərinin keçirilməsi nəzərdə tutulur”.



Günay Hüseynova

## Əsas məqsəd erkən kəsimin qarşısını almaqdır

İqtisadçı Günay Hüseynovanın sözlərinə görə, əsas məqsəd erkən kəsimin qarşısını almaqdır. Bununla belə, yeni qaydaların tətbiqi qiymət artımına şərait yarada bilər: “Bazarda tələb-təklif balansının pozulması, eyni zamanda, bu sahə ilə əlaqəli digər istiqamətlərdə marjanın yüksəlməsi ümumi qiymət artımı ilə nəticələnə bilər. Bununla yanaşı, qiymətlərdə kəskin artım baş verərsə, bazarı tənzimləmək məqsədilə idxal məhsullarının həcmi də artırılacaq. Kənd təsərrüfatının heyvandarlıq, xüsusilə də ətlik məhsul istehsalı ilə məşğul olan kiçik təsərrüfat sahibləri lazımi iqtisadi islahatlar həyata keçirilmədiyi təqdirdə, bu dəyişikliklərdən daha çox zərər görə bilərlər”.

### “KİÇİK TƏSƏRRÜFATLARIN XƏRCLƏRİ ARTACAQ”

G.Hüseynova bildirir ki, iri fermerlər kiçik təsərrüfat sahiblərindən fərqli olaraq, heyvanların yem tələbatını əsasən öz təsərrüfatlarında istehsal etdikləri ot və yem hesabına qarşılayırlar: “Təbii ki, heyvanların daha gec kəsilməsi və uzun müddət saxlanılması iri təsərrüfatların gəlirlərinin artmasına imkan verəcək. Lakin kiçik təsərrüfatlarda vəziyyət fərqlidir. Pulla alınan ot və yem heyvanların daha uzun müddət saxlanılması halında təsərrüfat sahibinin maliyyə yükünü artıracaq. Düşünürəm ki, bu qaydaların tətbiqindən əvvəl müvafiq iqtisadi islahatlar həyata keçirilməlidir. Əks təqdirdə, yeni tələblər kənd sakinlərinin və kiçik fermerlərin heyvandarlıqdan uzaqlaşmasına səbəb ola bilər. Əlavə xərclərin pərakəndə satış qiymətlərinə təsir göstərməsi də gözləniləndir. Heyvanların daha gec kəsilməsi yem və saxlama xərclərini artırmaqla yanaşı, daşınma, kəsim məntəqəsinə gətirilmə, obyektin icarəsi və digər xərclərin də yüksəlməsinə səbəb olacaq”.

### “EV TƏSƏRRÜFATLARINA DÖVLƏT DƏSTƏYİ VERİLMƏLİDİR”

Ekspert hesab edir ki, heyvandarlıqla məşğul olan ev tipli təsərrüfatlara dövlət dəstəyi göstərilməlidir: “Əgər vətəndaş öz tələbatını ödəməklə yanaşı, daxili bazarın tələbinin müəyyən hissəsini də qarşılayırsa, ona dəstək verilməlidir. Bu, həm kiçik təsərrüfatların qorunmasına, həm də yerli istehsalın davamlılığına xidmət edə bilər. Yeni qaydaların uğurlu tətbiqi üçün yalnız heyvandarlıq təsərrüfatlarına deyil, digər kənd təsərrüfatı sahələri ilə məşğul olan ev təsərrüfatlarına da dövlət dəstəyi göstərilməlidir”.

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ



# TÜRK DÜNYASINA ŞƏXSİYYƏT VƏSİQƏSİ İLƏ SƏYAHƏT

**Türk Dövlətləri Təşkilatına üzv ölkələr daha bir yeniliyə hazırlaşırlar. Təşkilata üzv ölkələrin vətəndaşlarının şəxsiyyət vəsiqəsi ilə qarşılıqlı səfər etməsi məsələsi gündəmdədir.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin vətəndaşlarının şəxsiyyət vəsiqəsi ilə qarşılıqlı səfər etməsi məsələsi artıq bir müddətdir müzakirə olunur. Türkiyə tərəfi hazırda Azərbaycan və Türkiyə vətəndaşları arasında mövcud olan bu təcrübənin bütün Türk dövlətlərinə şamil edilməsinin mümkünlüyünü gündəmə gətirib.
Bəs bu sistemin digər Türk dövlətlərinə də tətbiq olunması Azərbaycan üçün nə vəd edir. Bu, ölkəmizin turizm və iqtisadi əlaqələrinə hansı təsirləri göstərə bilər?

### "TURİZMİN İNKİŞAFI BAXIMINDAN MÜHÜM İMKANLAR YARADA BİLƏR"

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının Turistlərə Maarifləndirmə və Dəstək şöbəsinin rəhbəri Rəhman Quliyevin fikrincə, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin vətəndaşları arasında şəxsiyyət vəsiqəsi ilə qarşılıqlı səfərlərin genişləndirilməsi Türk dünyasında turizmin inkişafı baxımından mühüm imkanlar yarada bilər: "Hesab edirəm ki, səfər prosedurlarının sadələşdirilməsi ilk növbədə turistlərin hərəkətliliyini artıracaq və qarşılıqlı turist axınının formalaşmasına müsbət təsir göstərəcək. Azərbaycan və Türkiyə arasında şəxsiyyət vəsiqəsi ilə səfər imkanının artıq mövcud olması bu modelin praktiki əhəmiyyətini göstərən mühüm nümunədir. Bu təcrübənin digər Türk dövlətlərinə də mərhələli şəkildə tətbiqi Azərbaycan üçün yeni turizm bazarlarının formalaşmasına, xüsusilə Qazaxıstan, Özbəkistan və Qırğızıstandan ölkəmizə turist axınının artmasına şərait yarada bilər. Bu prosesin turizmlə yanaşı, ticarət, investisiya, biznes, təhsil və mədəni əlaqələrə də müsbət təsir göstərə biləcəyini düşünürəm. Əslində, burada söhbət yalnız viza prosedurlarının sadələşdirilməsindən getmir. Əsas məqsəd Türk dövlətləri arasında insanların sərbəst və təhlükəsiz hərəkət imkanlarının genişləndirilməsidir".

Ekspert hesab edir ki, Azərbaycanın Türk dünyasında turizm əlaqələrinin inkişafında fəal rol oynaması ölkəmizin regional turizm mərkəzi kimi mövqeyinin daha da möhkəmlənməsinə xidmət edə bilər: "Təbii ki, belə bir sistemin tətbiqi zamanı sərhəd təhlükəsizliyi, sənədlərin qarşılıqlı tanınması və digər hüquqi-texniki məsələlər də vahid yanaşma əsasında tənzimlənməlidir".

### ZƏNGƏZUR DƏHLİZİ NAXÇIVAN-TÜRKİYƏ MARŞRUTUNU İNTENSİVLƏŞDİRƏCƏK

Turizm üzrə ekspert Əziz Şiriyevin sözlərinə görə, bu məsələ çoxdan müzakirə olunur: "Hazırda nəqliyyat-logistika layihələrinin, o cümlədən Zəngəzur dəhlizinin reallaşdırılması strateji əhəmiyyət daşıyır: Zəngəzur dəhlizi açılandan sonra Naxçıvan-Türkiyə marşrutu intensivləşəcək. Digər tərəfdən Xəzər dənizi ilə digər Türk dövlətlərinə səyahət imkanları da artacaq".

Ekspert bildirir ki, biz onsuz da Türkiyəyə şəxsiyyət vəsiqəsi ilə gedirik, ancaq digər Türk dövlətlərinə də gedilsə, bu, turistik əlaqələrlə yanaşı, siyasi əlaqələrin də genişlənməsinə böyük vüsət verər: "İpək yolu marşrutu" adlı böyük bir konsept hazırlanır. Bu konseptə görə bir paketlə münasib qiymətə müxtəlif ölkələrə səfərlər mümkün olacaq. İstənilən tur marşrut isə Azərbaycandan keçəcək. Bu da iqtisadi töhfəsini verəcək. Bu, ölkəmizin turistik zonaya çevrilməsi, turistlərin cəlbi baxımından əlavə motivasiya verəcək. Bundan əvvəl türklər daha çox Balkan ölkələrinə səfər edirdilər. Hazırda türk dünyası bir-birinə fayda verməyə çalışır".



## Qiymətlər və alternativ imkanlar

İqtisadçı-ekspert Elşən Bağırzadə də hesab edir ki, Türk dövlətləri arasında şəxsiyyət vəsiqəsi ilə səfər imkanının genişləndirilməsi, şübhəsiz ki, müsbət addımdır və insanların qarşılıqlı hərəkətini bir qədər də asanlaşdıra bilər: "Nəzərə almaq lazımdır ki, Türk dövlətləri arasında hazırda viza rejimi yoxdur və vizasız qalma müddətləri də kifayət qədər genişdir. Buna görə şəxsiyyət vəsiqəsi ilə səfərə keçidin turizm və iqtisadi əlaqələrdə kəskin sıçrayış yaradacağını gözləmək doğru olmaz".

E.Bağırzadənin fikrincə, insanların ölkələr arasında hərəkətliliyini yalnız viza və pasport rejimləri müəyyən etmir: "Birbaşa və müntəzəm nəqliyyat əlaqələrinin mövcudluğu, xüsusilə aviabiletlərin qiymətləri və alternativ nəqliyyat imkanları daha mühüm amillərdir. Hazırda Türk respublikaları arasında bu istiqamətdə görülməsi xeyli iş var".

Ekspertin fikrincə, şəxsiyyət vəsiqəsi ilə səfər rejiminin genişləndirilməsini iqtisadi inteqrasiyanı dəstəkləyən müsbət addım kimi qiymətləndirmək olar: "Lakin onun real iqtisadi effekti nəqliyyat bağlantılarının genişləndirilməsi və səfər xərclərinin aşağı salınması ilə tamamlanmalıdır".



Əziz Şiriyev   Rəhman Quliyev

# İNSANLARIN BORCLANMA VƏRDİŞLƏRİ DƏYİŞİR

Kredit kartları üzrə əməliyyatların həcmi bir il ərzində 12,8 faiz azalaraq 703 milyon manata düşüb. Kredit limitlərinin sərtləşdirilməsi, faizsiz taksit imkanlarının genişlənməsi və əhalinin borclanmağa daha ehtiyatlı yanaşması kredit kartlarının dövriyyəsinə təsir edən əsas amillər sırasındadır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Azərbaycanda bank kartlarından istifadənin ümumi həcmi artmaqda davam etsə də, bu sahədə diqqətçəkən fərqli tendensiya müşahidə olunur. Belə ki, debet kartları ilə aparılan əməliyyatlar artdığı halda, kredit kartları üzrə dövriyyə əksinə, nəzərəçarpacaq dərəcədə azalıb. 2026-cı il avqustun 1-nə kredit kartları ilə əməliyyatların həcmi illik müqayisədə 12,8 faiz azalaraq 703 milyon manata düşüb. Bəs görəsən vətəndaşlar kredit kartlarından daha az istifadə etməyə başlayıblar, yoxsa bankların kreditləşmə siyasətində sərtləşmə bu azalmanı şərtləndirib?

### "KREDİTƏ MARAQ AZALMAYIB, SADƏCƏ SEÇİM DƏYİŞİB"

Maliyyə və bank eksperti Xəyal Məmmədlinin sözlərinə görə, kredit kartları ilə əməliyyatların azalmasını yalnız vətəndaşların bu maliyyə alətinə marağının zəifləməsi ilə izah etmək düzgün olmaz. Burada həm istehlakçı davranışındakı dəyişikliklər, həm də bankların kredit siyasəti rol oynayır: "2025-ci ildən kredit kartları üzrə tənzimləyici tələblərin sərtləşdirilməsi bankları kredit limitlərini müəyyənləşdirərkən daha ehtiyatlı davranmağa sövq edib. Borcalanın gəliri və mövcud kredit öhdəlikləri daha ciddi nəzərə alınır. Bu isə həm yeni limitlərin, həm də istifadə olunan kredit vəsaitlərinin həcminə təsir göstərə bilər. Yəni vətəndaşın kredit kartından istifadə imkanının əvvəlki qədər geniş olmaması onun bu məhsula olan tələbinin azalması görüntüsünü də yarada bilər. Bu baxımdan, statistik göstəriciyə həm bankların kredit siyasəti, həm də istehlakçıların davranışı təsir edir".

X.Məmmədli bildirdi ki, istehlakçılar kredit kartları əvəzinə istehlak kreditlərinə və müxtəlif taksit məhsullarına üstünlük verirlər. Ümumi kart əməliyyatlarının 6,7 faiz, debet kartları üzrə dövriyyənin isə 8 faiz artması göstərir ki, kartlardan istifadəyə maraq ümumilikdə azalmayıb: "Sadəcə, vətəndaşların maliyyə alətlərindən istifadə strukturunda dəyişiklik baş verir. Yaxın dövrdə kredit kartları üzrə artımın daha məhdud olacağı gözlənilir. Lakin bunu bazarın zəifləməsi kimi deyil, kreditləşmənin daha seçici xarakter aldığı və risklərin daha ciddi qiymətləndirildiyi mərhələ kimi dəyərləndirmək lazımdır".

### "FAİZSİZ TAKSİT KREDİT KARTININ RƏQİBİNƏ ÇEVRİLİB"

Bank eksperti Emin Kərimov isə düşünür ki, əsas səbəblərdən biri kredit limitləri ilə bağlı tətbiq olunan tənzimləmələrdir: "Kredit limitlərinin əvvəlki dövrlə müqayisədə daha ehtiyatlı müəyyənləşdirilməsi vətəndaşların da məhdudlaşdıra bilər. Əvvəlki illərdə banklar kredit kartları üzrə limitləri daha sərbəst müəyyənləşdirirdilər. Bəzi hallarda kredit limiti müştərinin əməkhaqqının 10-15 mislinə çatırdı. Hazırda tətbiq olunan məhdudiyyətlər isə kredit xəttinin əvvəlki qədər geniş olmasına imkan vermir. Nəticədə daha yüksək məbləğə ehtiyac yaranan zaman bəzi vətəndaşlar nağd kreditlərə yönəlirlər. Bu zaman kredit kartı üzrə dövriyyə azalır, lakin həmin şəxsin kreditə olan ehtiyacı tamamilə aradan qalxmır. Sadəcə, borclanma üçün istifadə etdiyi maliyyə aləti dəyişir".

E.Kərimovun fikrincə, kredit kartları üzrə dövriyyənin azalmasına taksit imkanlarının genişlənməsi də təsir edir: "Hazırda həm mağazalarda, həm də bank məhsullarında 6, 12, bəzi hallarda 24 aya qədər faizsiz taksit imkanları təqdim olunur. Vətəndaş məhsulun dəyərini faizsiz hissə-hissə ödəyə bilirsə, bunun üçün ayrıca kredit xəttindən istifadə etməyə ehtiyac qalmır. Yəni kredit kartlarına müəyyən alternativ yaranıb".

### "BANK ÜÇÜN ƏSAS MƏSƏLƏ YALNIZ DAHA ÇOX KREDİT VERMƏK DEYİL"

Ekspertin sözlərinə görə, kredit limitlərinin məhdudlaşdırılmasının əsas məqsədi əhalinin həddindən artıq borclanmasının qarşısını almaq və problemli kreditlər riskini azaltmaqdır: "Bank üçün də əsas məsələ yalnız daha çox kredit vermək deyil, verilən vəsaitin geri qaytarılmasını təmin etməkdir. Buna görə müştərinin gəliri, mövcud öhdəlikləri və ödəmə qabiliyyəti daha çox əhəmiyyət daşıyır. Bununla belə, kredit kartlarının bazardakı rolunun aradan qalxacağını düşünmək olmaz. Bu məhsullar xüsusilə qısamüddətli və təcili maliyyə ehtiyaclarının qarşılanması baxımından aktual olaraq qalacaq. Kredit kartının əsas üstünlüklərindən biri də vətəndaşa müəyyən məbləğdə maliyyə resursuna ehtiyac yarandığı zaman çevik imkan yaratmasıdır. Gələcəkdə debet, kredit və taksit imkanlarını birləşdirən multifunksional kartların daha geniş yayılması da mümkündür".




### "VƏTƏNDAŞ BORCLANMAĞA DAHA EHTİYATLI YANAŞIR"

İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyev isə bildirdi ki, kredit kartlarının geniş yayılması insanların bu maliyyə alətinin mahiyyətini daha yaxşı anlamasına da təsir edib. Vətəndaşlar artıq kartdakı vəsaitin şəxsi gəlir deyil, borc olduğunu və nəzarətsiz istifadənin əlavə maliyyə yükü yarada biləcəyini yaxşı başa düşürlər. Bəzi şəxslər maliyyə vəziyyətinə və ya əvvəlki kredit öhdəlikləri üzrə gecikmələrinə görə bu məhsuldan istifadə edə bilmirlər. Faiz əsaslı maliyyə məhsullarından dini səbəblərlə istifadə etməyənlər də var. Digər qrup isə kredit kartından istifadə etdikdən sonra onun özü üçün faydalı olmadığını düşünərək bu məhsuldan imtina edir".

R.Atakişiyevin fikrincə, maliyyə savadlılığı artdıqca insanlar maliyyə məhsullarının üstünlükləri ilə yanaşı, risklərini də daha düzgün qiymətləndirirlər: "Əvvəllər bəzi vətəndaşlar kredit limitinin tamamından istifadə edib sonrakı ödənişləri necə edəcəklərini düşünmürdülərsə, indi borcun hansı mənbədən və nə vaxt qaytarılacağına daha çox diqqət yetirilir. Bu baxımdan kredit kartlarından istifadənin azalması istehlakçıların daha düşünülmüş maliyyə qərarları verməsi ilə də bağlı ola bilər. Banklar üçün də bu dəyişiklik yalnız mənfi tendensiya kimi qiymətləndirilməməlidir. Müştərilərin dəyişən tələbatına uyğun daha çevik və effektiv maliyyə məhsullarının təqdim edilməsi yeni imkanlar yarada bilər".

# MAŞIN BAZARINDA SƏSSİZ GERİLƏMƏ

Avtomobil idxalının kəskin azalması ilə yanaşı, ikinci əl avtomobil bazarında da qiymətlər aşağı istiqamətdə dəyişib. Hesablamalara görə, avqust ayında ikinci əl avtomobillər iyulla müqayisədə orta hesabla 0,6 faiz ucuzlaşıb.

SEVİNC ABBASOVA

Azərbaycanda avtomobil bazarında nəzərəçarpan dəyişikliklər baş verir. Statistik məlumatlara görə, 2026-cı ilin ilk səkkiz ayında ölkəyə gətirilən avtomobillərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 35 faiz azalıb. Minik avtomobillərinin idxalında geriləmə 37,4 faiz, hibrid, plug-in hibrid və elektromobillərin ümumi idxalında isə 60,3 faiz təşkil edib.

İdxalın kəskin azalması ilə yanaşı, ikinci əl avtomobil bazarında da qiymətlər aşağı istiqamətdə dəyişib. Lakin burada kəskin ucuzlaşmadan söhbət getmir. Hesablamalara görə, avqust ayında ikinci əl avtomobillərin qiyməti iyulla müqayisədə orta hesabla 0,6 faiz ucuzlaşıb. Bəs avtomobil idxalındakı kəskin azalma Azərbaycanda avtomobilə olan marağın səngiməsi kimi qiymətləndirilə bilərmi?

### İDXALIN AZALMASI BAZARDA TƏLƏBİN ZƏİFLƏMƏSİNİN GÖSTƏRİCİSİDİR

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri, iqtisadçı-ekspert Vüqar Oruc bildirib ki, avtomobil idxalında qeydə alınan azalma müxtəlif səbəblərlə bağlıdır: "Azalma ilk növbədə, 2026-cı ilin əvvəlindən tətbiq olunan idxal rüsumları ilə bağlıdır. Əvvəllər hibrid və plug-in hibrid avtomobillərə güzəştlər tətbiq edilirdi. Lakin 2026-cı il yanvarın 1-dən bu güzəştlərin aradan qaldırılması həmin avtomobillərin qiymətinin artmasına və nəticədə idxal həcminin azalmasına səbəb olub. İdxalın azalması, şübhəsiz ki, bazarda tələbin zəifləməsinin göstəricilərindən biridir. Bununla yanaşı, prosesə vergi-gömrük siyasəti, avtomobillərin maya dəyərinin artması, bank kreditlərinin əlçatanlıq səviyyəsi, ikinci əl avtomobil bazarında qiymət dinamikası və yeni avtomobil brendlərinin bazara daxil olması kimi amillər də təsir edir".

### BAZAR KİÇİLMİR, STRUKTUR DƏYİŞİR

Ekspert diqqətçəkən məqamlardan birinin idxal olunan avtomobillərin orta statistik dəyərinin əvvəlki illə müqayisədə artması olduğunu bildirib: "İdxalın azalmasına baxmayaraq, gətirilən avtomobillərin orta dəyərində artım var. Bu, bazarın tamamilə daralmasından çox, strukturunun dəyişdiyini göstərir. Eyni zamanda, ikinci əl avtomobil bazarında qiymət təzyiqi yaranıb. Avtomobil bazarında qiymətlərin zəifləməsini yalnız alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə izah etmək düzgün olmazdı. 2026-cı ildə iqtisadi vəziyyətin əvvəlki illə müqayisədə dəyişməsi də faktdır. Ailələr büdcələrində digər xərcləri avtomobil almaqdan daha üstün istiqamət kimi qiymətləndirə bilərlər".

### PRAKTİKİ PROBLEMLƏR BU AVTOMOBİLLƏRƏ MARAĞI AZALDIB

V.Oruc hibrid və elektromobillərin idxalındakı kəskin azalmanın da xüsusi diqqət tələb etdiyini deyib: "Hibrid avtomobillərin idxalında 60 faizdən çox azalma baş verib. Plug-in hibridlərin idxalı da təxminən 60 faiz, tam elektrik avtomobillərin idxalı isə 55 faiz azalıb. Düşünürəm ki, bu geriləmədə həmin avtomobillərin Azərbaycan bazarının real tələblərinə nə dərəcədə cavab verməsi də rol oynayır. Əvvəllər bu avtomobillərə daha ucuz olduğu üçün üstünlük verilirdi. Lakin istismar prosesində ehtiyat hissələrinin baha olması, bəzi hallarda onların gec əldə edilməsi və digər praktiki problemlər yeni avtomobillərə marağın azalmasına təsir göstərib".

## UZUNMÜDDƏTLİ OLACAQ?

V.Orucun sözlərinə görə, hələlik hazırkı geriləməni uzunmüddətli proses kimi qiymətləndirmək düzgün deyil: "Bu, müəyyən mənada tənzimlənən geriləmədir və bazar tələbə uyğun yenidən formalaşır. Hazırkı həcm az deyil, əvvəlki həcm yüksək idi. Əvvəllər əhalinin yığım imkanlarının müəyyən hissəsi avtomobilə yönəlirdi. Buna taksi xidmətinin gəlirli sahə olması da təsir göstərirdi. Hazırda isə taksi fəaliyyətinə dair tələblərin sərtləşdirilməsi, sürücülər üçün sertifikat tələbi, avtomobillərin istehsal ili ilə bağlı məhdudiyyətlər və digər inzibati şərtlər bu sahəyə təsir edib. Bu dəyişikliklər avtomobilin gəlir gətirən biznes vasitəsi kimi istifadəsinə və avtomobil icarəsi bazarına da öz təsirini göstərir. Bütün bu amillər avtomobil bazarında həm məhdudlaşdırıcı, həm də tənzimləyici rol oynayır".

### ALVERÇİLƏR ÖTƏN İLDƏN BAZAR ÜÇÜN EHTİYAT YARADIBLAR

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının İdarə Heyətinin sədri Eyyub Əliyev bildirib ki, ötən il ekoloji təmiz nəqliyyat vasitələrinə tətbiq olunan güzəştlərin başa çatması və əvvəlcədən idxal edilən avtomobillərin hələ də satışda olması bazardakı durğunluğa təsir göstərib.

Assosiasiya sədri avtomobillərə tələbatın azalmadığını və utilizasiya prosesinin bazara təsir göstərəcəyini vurğulayıb.

"İdxalın azalması ölkədə avtomobillərə tələbatın olmadığı anlamına gəlmir. Azərbaycanda utilizasiya prosesi davam edir və artıq kifayət qədər avtomobil təhvil verilib. Bu avtomobilləri utilizasiyaya təqdim edən şəxslərin yeni nəqliyyat vasitələri alması gözlənilir. Buna görə də idxaldakı azalma müvəqqəti xarakter daşıyır və qarşıdakı dövrdə artım tempinin bərpa olunacağını düşünürük", - deyə o bildirib.

E. Əliyev avtomobil parkının yaşlı olması fonunda idxalın azalmasının ciddi böhran kimi qiymətləndirilməməli olduğunu deyib. "Bu, müvəqqəti durğunluqdur", - deyə Assosiasiya sədri əlavə edib.

### LOGİSTİKA XƏRCLƏRİ QİYMƏTLƏRİ ARTIRIR

Assosiasiya sədri daşınma marşrutlarında yaranan yüklənmənin də avtomobil qiymətlərinə təsir etdiyini diqqətə çatdırıb.

"İran-ABŞ-İsrail müharibəsi səbəbindən Bəndər Abbas istiqamətindən ölkəmizə avtomobil daşınmasında çətinliklər yaranıb. Hazırda ən optimal marşrut Çin-Qazaxıstan-Xəzər istiqamətidir. Lakin bu marşrutla yalnız Azərbaycana deyil, Avropaya da yüklər daşındığından logistika xətlərində yüklənmə müşahidə olunur. Nəticədə daşınma xərcləri artır. Logistika xərclərinin yüksəlməsi və tələbatın artması isə avtomobillərin qiymətinə təsir göstərir", - deyə o vurğulayıb.



# QANUN “OLAR” DEYİR, CƏMİYYƏT QINAYIR

Azərbaycan cəmiyyətində hələ də 50-60 yaşdan sonra qurulan ailə qeyri-adi hadisə kimi qarşılanır. Buna normal yanaşanlar olsa da, çoxluğun bu addımı atanlara münasibəti birmənalı deyil.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Gənc yaşda evlilik Azərbaycan cəmiyyətində həyatın təbii mərhələsi kimi qəbul edilsə də, 50-60 yaşdan sonra qurulan ailə hələ də qeyri-adi hadisə kimi qarşılanır. “Bu yaşda evlilik olar?”, “İnsan bu yaşdan sonra həyatını dəyişərmi?” kimi qınaqlar eşidilir.

Ancaq Dövlət Statistika Komitəsinin məlumatlarında 50-60 və daha yuxarı yaş qruplarında nikaha daxil olan şəxslərin ayrıca nəzərə alınması nikahın yalnız gənclərin “həyat mərhələsi” olmadığını göstərir. Məsələn, 2024-cü ildə 50-59 yaş qrupunda 851, 60 və daha yuxarı yaş qrupunda isə 362 nikah qeydə alınıb. Başqa sözlə, 50 yaşdan sonra da yüzlərlə insan ailə qurmaq qərarı verib. Bu baxımdan, bu gün “cəmiyyət niyə 25 yaşında evliliyi normal, 55 və ya yuxarı yaşında evliliyi qeyri-adi hesab edir?” sualına cavab birmənalı deyil.

Sosioloq və psixoloqların da məsələyə yanaşmasında fərqliliklər var.

### “BƏS YAZILMAYAN NORMALAR?”

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, sosioloq Ağasəlim Həsənovun fikrincə, yaşa uyğun davranışlar, cəmiyyətdə norma kimi qəbul edilən və edilməyən normalar hər bir cəmiyyətin özünəməxsusluğudur: “Bir cəmiyyətdə qəbul olunan sosial norma digər cəmiyyət üçün keçərli deyil. Azərbaycan cəmiyyətinin də özünəməxsus cəhətləri var. Bizim cəmiyyətdə yaşı 50-dən yuxarı olan insanların hər hansı ciddi obyektiv bir səbəb olmadan evliliyi normal qəbul edilmir. Əlbəttə, istisnalar ola bilir. Onların içində müsbət olanlar da var. Amma bunlar ümumi fikir söyləməyə əsas verə bilməz. Kəndlərdə də, şəhərlərdə də belə hallar baş verir.

Tutaq ki, bir yaşlı insan həyat yoldaşını itirib və tək qalmasın deyə tək yaşayan biri ilə evlənir. Onlar bu evliliyi adətən sakit formada həyata keçirir, bunu cəmiyyətə açıqlamırlar. Bu, bir əxlaq normasıdır. Azərbaycan cəmiyyəti bunu istisna olaraq qəbul edir. 80 yaşında ikən 20 yaşdakı həyatlarını yaşamağa çalışanlar da var. Bu cür hallar təqdir olunmur. Azərbaycan cəmiyyətinin çox cüzi hissəsi bunu norma kimi qəbul edə bilər. İctimai qınaq cəmiyyətin həyatında həmişə olub və bu, çox şeyi həll edir. Bu cür davranışlar gənclər üçün pis nümunə yaradır”.



## “CƏMİYYƏT SOSİAL DƏYƏRLƏRƏ DAHA ÇOX MEYİLLİDİR”

Sosioloq Naib Niftəliyevin fikrincə, 50-60 yaşlı insanların ailə qurmasında əslində qeyri-adi bir şey yoxdur: “Ola bilər ki, kiminsə evliliyi gecikib. Kimsə 50-60 yaşdan sonra ailə qurur, övladı dünyaya gəlir və s. Bu, normal bir yanaşmadır. Amma daha yuxarı yaşlardan sonra evlilik təbii olaraq müzakirə doğuracaq və bu, insanın sağlamlığına və gələcəyinə bağlı olan məsələdir. İnsan var ki, 60-70 yaşdan sonra ata və ya ana olur. Bu mənada yaş nisbi anlam kəsb edir. Təbii ki, 25 yaşında ailə qura bilməyib 50 yaşında buna cəhd edən insanlar var. Ancaq 60-65 yaşında ikinci, üçüncü dəfə ailə qurub yenidən həyata başlamaq istəyən insanlarla bağlı ictimai qınaqda müəyyən haqlı məqamlar var. Yəni insanlar onlardan müəyyən böyüklük, müdriklik gözlədiyi halda onlar yeni cavanlıq eşqinə düşürlər. Yaş fərqi olanda da balans prinsipi pozulur. Cəmiyyət sosial dəyərlərə daha çox meyillidir”.

### QANUN ONLARIN TƏRƏFİNDƏDİR, AMMA...

Sosioloqlun fikrincə, insan sağlamdırsa, iki tərəfin razılığı varsa, tərəflər rəsmi nikaha girə və ya vətəndaş nikahı çərçivəsində birgə yaşaya bilərlər: ”Bu, onların şəxsi işləridir. Amma digər tərəfdən, faktlar onu göstərir ki, belə məsələlər cəmiyyətdə sosial ədalət prinsipini, sosial tarazlığı və həmrəyliyi, nəsillərarası varislik prinsipini aradan qaldırır. İctimai qınaq məhz ailə məsələlərini tənzimləyən faktordur. Yoxsa ailə institutu, ailə təsisatı çoxdan aradan qalxardı. Yaxşı olar ki, insanlar ailə qurarkən bunu müzakirə obyektinə çevirməsinlər. Hüquqi cəhətdən qanun onların tərəfindədir, amma ictimai qınaq da haqlıdır”.



Naib Niftəliyev

## “AİLƏ QURMAQ YALNIZ GƏNCLİKLƏ MƏHDUDLAŞAN HADİSƏ DEYİL”

Psixoloq Təranə Paşayeva hesab edir ki, ailə qurmaq insan həyatının yalnız gənclik mərhələsi ilə məhdudlaşan hadisə deyil: “İnsan ömrü boyu müxtəlif sosial və emosional ehtiyaclara malik olur. Yaşın artması bu ehtiyacların yox olması anlamına gəlmir. Əksinə, həyatın müəyyən mərhələsində insan üçün emosional rahatlıq, qarşılıqlı anlayış, etibarlı ünsiyyət və yanında güvəndiyi bir insanın olması daha da əhəmiyyətli ola bilər”. Psixoloqun fikrincə, cəmiyyətdəki stereotiplərin formalaşmasında ənənəvi ailə modeli də mühüm rol oynayır: “Bu modeldən kənara çıxan insanlar isə bəzən qeyri-adi hesab olunub. Halbuki həyatın bütün insanlara eyni ssenarini təqdim etmədiyi artıq danılmaz reallıqdır. Bir insan 25 yaşında ailə qura bilər, digəri 35 yaşında, başqa biri isə 55-60 yaşında. Kiminsə ilk evliliyi uğurlu ola bilər, digəri boşana bilər, başqa bir insan həyat yoldaşını itirə bilər. Bütün bu hallarda insanın həyatına yenidən istiqamət vermək hüququ qalır”. T.Paşayevanın fikrincə, xüsusilə təkrar ailə qurmaq məsələsində cəmiyyətin münasibəti daha həssasdır: “25 yaşında ailə qurmaq normaldırsa, 55 və ya 60 yaşında ailə qurmaq da yalnız yaş səbəbindən qeyri-adi elan edilməməlidir. İnsan üçün həyatın yeni mərhələsinə başlamağın gec olduğu konkret bir yaş yoxdur”. Psixoloq hesab edir ki, cəmiyyətin inkişafının mühüm göstəricilərindən biri insanların şəxsi seçimlərinə münasibətidir: “İnsanların neçə yaşında ailə qurması, ikinci dəfə evlənməsi və ya həyatının müəyyən mərhələsində yeni münasibətə başlaması ilk növbədə onların şəxsi həyatına aid məsələdir”.



Ağasəlim Həsənov



Təranə Paşayeva

# RAYONLARA GEDƏN YOL NİYƏ RAHAT DEYİL?

Rayonlara işləyən avtobus parkının yenilənməsi davam edir. Bununla belə, uzunməsafəli marşrutlarda köhnə nəqliyyat vasitələrindən istifadə sərnişinlərin rahatlığı və xidmət keyfiyyəti ilə bağlı suallar yaradır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yayın qızmarında və ya qışın şaxtasında paytaxtdan rayonlara gediş-gəliş sərnişinlər üçün bəzən sınağa çevrilir. Şəhərlərarası sərnişindaşıma sistemində avtobus parkının yenilənməsi və xidmət keyfiyyətinin artırılması istiqamətində müəyyən addımlar atılsa da, marşrutlar üzrə mövcud vəziyyət eyni səviyyədə deyil. Bəzi istiqamətlərdə müasir standartlara uyğun avtobusların sayı artırıldığı halda, intensiv sərnişin axını olan digər bölgələrdə köhnə avtobus və mikroavtobuslarla bağlı şikayətlər davam edir. Məsələn, hazırda Lənkərana işıqlı və kondisionerli rahat avtobusda səyahət etmək mümkün deyil. Bu marşruta təyin olunan nəqliyyat vasitəsiköhnə "Mercedes" mikroavtobuslarıdır.

İsmayıllı və Astara istiqamətində səfər edən bəzi sərnişinlər də komfortlu avtobusların çatışmazlığından şikayətlənirlər. Xüsusilə uzunməsafəli marşrutlarda köhnə nəqliyyat vasitələrindən istifadə sərnişinlərin rahatlığı və xidmət keyfiyyəti ilə bağlı suallar yaradır.

Məlumat üçün bildirək ki, ictimai nəqliyyatda sərnişindaşıma keyfiyyətinin yüksəldilməsi məqsədilə xəttə müasir və komfortlu avtobusların buraxılması Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən müəyyən edilən normativ və texniki şərtlər əsasında tənzimlənir. Rayonlararası marşrut xətləri daşıyıcılara müsabiqə yolu ilə verilir. Nəqliyyat vasitələrinin yaşı, ekoloji norması və ümumi texniki sazlığı nəzərə alınır.

### AYNA NƏ DEYİR?

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) "Kaspi" qəzetinə verilən məlumata görə, qurum tərəfindən sərnişindaşıma xidmətinin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər çərçivəsində 2023-2026-cı illər ərzində keçirilən müsabiqələr nəticəsində bütün istiqamətlər üzrə marşrut xətlərinə daha müasir və komfortlu nəqliyyat vasitələri cəlb olunub.

2023-cü ildə 92, 2024-cü ildə 106, 2025-ci ildə 241, 2026-cı ilin bu gününədək isə 147-dən çox marşrut reysi üzrə müsabiqə keçirilib.

Bu dövr ərzində şimal və cənub istiqamətləri də daxil olmaqla, 174 müasir avtobus şəhərlərarası daşımalara cəlb edilib. Bakı şəhərindən ölkənin digər şəhər və rayonlarına şəhərlərarası daşıma üzrə avtobus parkının 47 faizi yenilənib.

AYNA-nın məlumatına görə, təkcə paytaxtdan Quba istiqamətində bu il beş, Qusar istiqamətində üç, Xaçmaz istiqamətində isə bir ədəd 2026-cı il istehsalı olan nəqliyyat vasitəsi cəlb olunub. Beləliklə, Bakı-Quba istiqaməti üzrə avtobusların orta yaşı səkkiz il, Bakı-Qusar istiqaməti üzrə altı il, Bakı-Xaçmaz istiqaməti üzrə 10 il, Bakı-Xudat istiqaməti üzrə isə yeddi il təşkil edir.

Hazırda paytaxtdan şimal istiqaməti üzrə fəaliyyət göstərən avtobusların 65 faizi buraxılış ili 2019-cu il və sonrakı illər olan nəqliyyat vasitələridir.

Cənub bölgəsinə gəldikdə isə, qurumdan bildirilib ki, Bakı-Lənkəran istiqaməti üzrə buraxılış ili 2020-ci ildən sonrakı olan üç, Bakı-Astara istiqamətində isə bir nəqliyyat vasitəsi daşımalara cəlb olunub. Bu istiqamətlər üzrə avtobusların orta yaşı doqquz il təşkil edir. Hazırda paytaxtdan cənub istiqaməti üzrə fəaliyyət göstərən avtobusların 60 faizi buraxılış ili 2018-ci il və sonrakı olan nəqliyyat vasitələridir.

Rəqəmlər avtobus parkının yenilənməsi istiqamətində işlərin görüldüyünü göstərir. Bununla belə, bəzi istiqamətlərdə komfortlu avtobusların sayının niyə hələ də məhdud qalması sual doğurur.




## KOMFORTLU AVTOBUSLARIN SAYI NİYƏ AZDIR?

Adının çəkilməsini istəməyən sahibkar deyir ki, cənub bölgəsində komfortlu avtobusların azlığı şəhərlərarası nəqliyyat sistemində mövcud iqtisadi problemlərlə əlaqədardır: "Bu gün müasir, komfortlu bir şəhərlərarası avtobusun qiyməti 250-300 min avro civarındadır. Hazırkı bilet tarifləri və amortizasiya xərcləri fonunda sahibkarın bu sərmayəni çıxarması riyazi olaraq mümkünsüzdür. Daşıyıcı hesablayır ki, 50 nəfərlik böyük avtobusu Lənkəran xəttinə salmaqdansa, həmin məbləğə 10 ədəd işlənmiş mikroavtobus alıb riski azaltmaq daha əlverişlidir. Bu səbəbdən müsabiqədə iştirak etməkdə maraqlı olmur".

Böyük avtobusların sərnişin axınına təsir edən amillərdən biri də avtovağzaldan kənarda fəaliyyət göstərən və sərnişinləri birbaşa ünvandan götürüb mənzil başına çatdıran taksi xidmətləridir. Sərnişin üçün daha çevik görünən bu xidmətlər bəzi hallarda avtobuslara alternativ yaradır.

### "AVTOBUS PARKINDA YENİLƏNMƏ PROSESİ SÜRƏTLƏNİB"

Nəqliyyat eksperti Eldəniz Cəfərov bildirir ki, son illər Bakıdan digər şəhərlərə sərnişindaşıma həyata keçirən avtobus parkında yenilənmə prosesi sürətlənib, marşrutlara daha müasir və komfortlu nəqliyyat vasitələri cəlb olunub: "Şəxsən özüm də bu yay mövsümündə bəzi rayonlarımıza avtobusla səfər etdim və həm qiymət siyasətindən, həm də mövcud rahatlıqdan çox razı qaldım. AYNA-nın elan etdiyi regional marşrut müsabiqələrinə böyük avtobus mülkiyyətçiləri tərəfindən maraq göstərilir".

### "DAŞIYICILARIN ÖZLƏRİ BUNA MARAQLI OLMALIDIR"

Ekspert bildirir ki, bütün istiqamətlər üzrə vəziyyəti ideallaşdırmaq asan deyil və bəzi bölgələrdə müəyyən çatışmazlıqların olması mümkündür: "Bu məsələ daha çox sərnişindaşıma ilə məşğul olan daşıyıcı şirkətlərdən asılıdır. Düzdür, dövlət tərəfindən istismarda olan avtobuslara ciddi nəzarət olunur. Lakin komfort yaratmaq və müştərini cəlb etmək baxımından daşıyıcıların özləri maraqlı olmalıdırlar ki, daha keyfiyyətli xidmət təklif edib sərnişin sayını artırsınlar".

### "SAHİBKARLARA DƏSTƏK MEXANİZMLƏRİNƏ EHTİYAC VAR"

Sərnişinlərin taksi xidmətlərinə üstünlük verməsinə toxunan E.Cəfərov qeyd edib ki, avtobusların müəyyən olunmuş dayanacaqlarda saxlaması və mənzil başına daha gec çatması səbəbindən taksi bəzi sərnişinlər üçün daha əlverişli görünə bilər. Bununla yanaşı, qiymət fərqi kifayət qədər böyükdür. Təhlükəsizlik amili baxımından da iri avtobuslar sərnişinlər üçün daha üstün seçimdir: "Bu sahə həm daşıyıcı şirkətlər, həm də sahibkarlar üçün rentabelli olmalıdır".


Eldəniz Cəfərov

# ALPLARIN ƏTƏYİNDƏ İTALYAN NAĞILI

Berqamo uzun illər Venesiya hakimiyyəti altında olduğundan çoxsaylı tarixi xəzinələri qoruyub saxlayır. Şəhər həqiqətən də, özündə bir çox sürprizləri gizlədir.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Berqamo şəhəri ilk baxışdan qədim tarixlə müasir həyatın harmoniyasını nümayiş etdirir. Şəhər orta əsr görünüşünü qoruyub saxlasa da, müasir sivilizasiyanın bütün üstünlüklərindən uğurla istifadə edir - hava limanı Milanın hava şəbəkəsinə qoşulub. Berqamo hava limanı əsasən yerli İtaliya daşıyıcılarından və Avropanın aşağı büdcəli aviaşirkətlərindən uçuşlar həyata keçirir. Milandan Berqamoya gündəlik qatarlar və avtobuslar işləyir. Bu şəhərin Milanla yarışan dəb şəhəri olduğundan çox səyahətçilər xəbərsizdir. Axı şəhər moda paytaxtından cəmi 50 km məsafədədir.

Berqamo vağzalı kiçik, səliqəli və təmiz binadır. Burada turistlərin, xüsusilə də gənclərin axını diqqət çəkir. Elə dəmiryolu vağzalının yanında avtovağzal yerləşir və buranı şəhərin faktiki mərkəzi hesab etmək olar.

## TARİXİ FUNİKULYORLA SƏYAHƏT

Qatardan düşən kimi sanki başqa bir dövrlə, tamam fərqli bir aləmlə üz-üzə qalırsan.

Şəhər turunun bələdçisi Luzanna tura məşhur fransız memarı Le Korbuzyenin sözləri ilə başlayır: "Lombardiyada çoxsaylı görməli yerlərə baxmayaraq, Berqamo kimi az tanınan başqa bir şəhər yoxdur. Berqamo, həqiqətən də, bir çox sürprizləri və mədəni xəzinələri gizlədir. Mən sizə onları kəşf etməyə və şəhərin tarixi və memarlığı haqqında ən maraqlı faktları bölüşməyə kömək edəcəyəm".

Şəhərin mərkəzinə doğru irəlilədikcə qarşımızda tipik orta əsrlər İtaliya şəhərinin mənzərəsi açılır.

Yerlilər və turistlər şəhəri iki hissəyə - Yuxarı Şəhər (Citta Alta) və Aşağı Şəhərə (Citta Bassa) bölürlər. Bu hissələri birləşdirən tarixi funikulyor hər gün yüzlərlə turist və yerli sakini şəhərin əsrlər boyu qorunub saxlanılan qədim mərkəzinə daşıyır.

Aşağıdan Yuxarı Şəhərə səyahət edərkən funikulyordan istifadə etmək məsləhətdir. Bu ərazi Berqamo Alplarının (Alpi Orobie) üzəyidir: təbiət və mənzərələr, şəhər və onun iqtisadi quruluşu, insanları və adət-ənənələri - hamısı dağlıq bölgəyə xasdır. Şəhər kiçikdir, buna görə də bütün görməli yerləri piyada asanlıqla araşdırmaq olar. Alp dağlarının ətəyində yerləşdiyindən təbiət həvəskarları üçün də cəlbedici məkandır. Qış aylarında dağ-xizək kurortları, yayda isə dağ yürüşləri və göl marşrutları turistlərin böyük marağına səbəb olur. Bu şəhər sanki bütün orta əsr şəhərlərinin ümumiləşdirilmiş obrazıdır: möhkəm, sanballı və dar küçələrində bir qədər tutqun...

## 16-CI ƏSR QALA DİVARLARI

Berqamo uzun illər Venesiya hakimiyyəti altında olduğundan çoxsaylı tarixi xəzinələri qoruyub saxlayır.

Yuxarı Şəhərə daxil olan kimi dar daş küçələr, orta əsrlərə aid saraylar və Venesiya dövründən qalan qala divarları diqqəti cəlb edir. UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilən bu müdafiə divarları şəhərin zəngin keçmişinin ən mühüm simvollarından sayılır.

Yuxarı Şəhər iki əsas meydanı əhatə edir: 12-ci əsr orta əsr sarayı olan Köhnə Meydan (Piazza Vecchia) və kiçik Katedral Meydanı (Piazza del Duomo). Bu abidələr 1428-ci ildə Venesiya hakimiyyəti dövründə inşa edilib. Şəhər divarları da 16-cı əsrin ikinci yarısında venesiyalılar tərəfindən tikilib. Şəhərin mərkəzi sayılan Piazza Vecchia meydanında günün istənilən saatında canlılıq hökm sürür. Meydandakı universitet atmosferi gəncləri bir araya gətirir. Ətrafdakı kafelər və universitet tələbələrinin çılğın söhbətləri Berqamonun gündəlik həyatına xüsusi rəng qatır.

Tarixi meydanın yaxınlığında yerləşən Santa Maria Maggiore Bazilikası və Cappella Colleoni isə şəhərin memarlıq incilərindən hesab olunur. "17-ci əsrin ortalarında Yuxarı Şəhərin qalaları tikildi və şəhərin özü aşağıya doğru genişləndi. Müasir Berqamonun əsl xəzinəsi, gəzintiyə dəvət edən və incə memarlığı ilə öyünən meydançaları olan Yeni Qapı Məhəlləsidir (quartiere di Porta Nuova). Üç əsas meydança - Matteotti, Vittorio Veneto və Dante - 20-ci əsrin ikinci yarısında şəhərin görünüşünü dəyişdirən memar Marçello Piasentini tərəfindən yaradılıb", - deyə bələdçi şəhər ekskursiyası zamanı məlumat verir.



## QƏDİM KEÇMİŞLƏ MÜASİR ŞƏHƏRİN RİTMİ

Aşağı Şəhər isə tamamilə fərqli mənzərə təqdim edir: geniş küçələr, müasir mağazalar, restoranlar və ticarət mərkəzləri Berqamonun iqtisadi həyatının əsasını təşkil edir. Buradakı "Accademia Carrara" muzeyində orta əsrlərdən Barokko dövrünə qədər uzanan zəngin rəsm kolleksiyası nümayiş etdirilir.

Berqamo Universitetindən başqa, şəhərdə 1806-cı ildə təsis edilmiş, ətrafa musiqi səsləri yayan "Gaetano Donizetti" konservatoriyası yerləşir. Berqamo həm də dünya şöhrətli opera bəstəkarı Gaetano Donizettinin doğulduğu şəhər kimi tanınır. Bəstəkarın adını daşıyan teatr və konservatoriya bu gün də şəhərin musiqi ənənələrini yaşadır.

Muzeydə isə ustadın şəxsi və peşəkar həyatından musiqi alətləri və əşyalar nümayiş olunur.

Şəhərin məşhur memarlıq abidələrində əfsanəvi Heraklın şücaətləri əks olunub. Herakl ilə Berqamo şəhərini daha çox intibah dövrü incəsənəti və memarlığı bağlayır. İntibah dövründə İtaliyada Herakl güc, cəsarət və zəka rəmzi kimi qəbul olunduğu üçün Berqamo şəhərinin saraylarında və dini-mədəni tikililərində onun obrazına toxunulub. Məsələn, Berqamonun ən önəmli tarixi abidələrindən biri olan Bazilikanın fasadında Heraklın mifoloji qəhrəmanlıqlarını təsvir edən relyeflər və bəzəklər diqqət çəkir.

Tarixi irsi, mədəni zənginliyi və sakit atmosferi ilə Berqamo İtaliyanın ən fərqli şəhərlərindən biri kimi yadda qalır. Bu şəhərə gələnlər qədim küçələrdə keçmişin izlərini hiss edir, eyni zamanda müasir şəhər həyatının ritmini yaşayırlar.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
26 SENTYABR ŞƏNBƏ 2026
www.kaspi.az

Azərbaycan millisinin baş məşqçisi Ayxan Abbasov qarşıdakı oyunlar üçün seçimini edib. Mütəxəssis 30 futbolçuya dəvət göndərib. Futbolçuların əksəriyyəti daxili çempionatda çıxış edir.

# YIĞMAMIZIN NÖVBƏTİ CİDDİ SINAĞI




Futbol üzrə Azərbaycan millisi növbəti ciddi sınaq qarşısındadır. Ölkənin əsas komandası Millətlər Liqasının 2026/27 mövsümünə başlayır. Millimiz D Liqasının 2-ci qrupunda Litva və Lixtenşteyn ilə üz-üzə gələcək.

### ABBASOVUN SƏRƏNCAMINDAKI 30 FUTBOLÇU

Baş məşqçi Ayxan Abbasov qarşıdakı oyunlar üçün seçimini edib. Mütəxəssis 30 futbolçuya dəvət göndərib. Futbolçuların əksəriyyəti daxili çempionatda çıxış edir. Eyni zamanda "Petrolul"dan (Rumıniya) Cəlal Hüseynov, "Daejon Hana"dan (Cənubi Koreya) Anton Krivotsyuk, "Bursaspor"dan (Türkiyə) Toral Bayramov, "Kiryat Şmona"dan (İsrail) Rüfət Abdullazadə, "Kişvarda"dan (Macarıstan) Anatoli Nuriyev, "Malisheva"dan (Kosovo) Vüsal İsgəndərli, "Rakuv"dan (Polşa) Mahir Emreli və "Bukovina"dan (Ukrayna) Renat Dadaşov da heyətə cəlb olunub. Qapıçı Rəvan Mirzəmmədovla yarımmüdafiəçilər Edqar Adilxanov, Oruc Məmmədov və Fərid Yusifli isə milliyə ilk dəfə dəvət alıblar.

Ümumilikdə, baş məşqçinin seçimi ilə bağlı müəyyən müzakirələr olsa da, diqqətçəkən və hazırda milliyə namizəd hesab olunan futbolçuların əksəriyyətinə dəvət göndərilib. Bununla belə, komanda üzvlərinin heç də hamısının ideal formada olduğunu demək olmaz.

Digər tərəfdən, mövcud resurslara nəzər saldıqda baş məşqçinin böyük seçim imkanlarına malik olmadığı da aydın görünür.

### LİTVA İLƏ BAŞLAYAN KAMPANİYA

Komandamız Millətlər Liqasında ilk oyununu sentyabrın 27-də Litva yığmasına qarşı keçirəcək. Baltikyanı ölkə təmsilçisi də yığmamız kimi C Liqasından aşağı düşüb və qrupun reytinq baxımından ikinci komandasıdır. Hazırda Litva FIFA sıralamasında 149-cu pillədə qərarlaşıb. Azərbaycan millisi isə həmin siyahıda 126-cıdır. Bu baxımdan, qrupda ilk pillə uğrunda əsas mübarizənin məhz bu iki komanda arasında gedəcəyi gözlənilir.

Litva millisi heyətinə görə Azərbaycan yığmasından üstün hesab olunmasa da, kifayət qədər yaxşı oyunçulara malikdir. Komandanın əksər futbolçuları ölkə xaricində çıxış edir. Xüsusilə İtaliyanın "Torino" klubunun üzvü Qvidas Kineitisi qeyd etmək lazımdır. Bazar dəyəri səkkiz milyon avro olan yarımmüdafiəçi bu mövsüm A Seriyasında keçirdiyi 4 oyunda 1 məhsuldar ötürmə ilə yadda qalıb. Bu baxımdan, orta xətt oyunçularımızın ona qarşı xüsusi diqqətli olması vacibdir.

Ümumiyyətlə, D Liqasında mübarizə aparmasına baxmayaraq, Litva kifayət qədər yaxşı heyətə malik və möhkəm təsir bağışlayan komandadır. İndiyədək yığmamız litvalılarla üç dəfə yoldaşlıq oyununda üz-üzə gəlib. Tərəflər hərəyə bir qələbə qazanıb, daha bir qarşılaşma isə heç-heçə başa çatıb.

## Dünyanın ən zəif komandalarından biri

Millimizin ikinci rəqibi Lixtenşteyn millisidir. Qrupun aşkar autsayderi olan bu komanda FIFA reytinqində 211 yığma arasında 206-cı pillədə qərarlaşıb. Belə rəqib qarşısında millimizin hədəfi yalnız qələbə ola bilər. Bu komanda ilə keçiriləcək oyunlarda hər hansı xal itkisi komandanın hədəflərinə ciddi zərbə vura bilər.

Maraqlıdır ki, Lixtenşteyn millisi tarixində ilk qələbəsini məhz Azərbaycan yığması üzərində qazanıb. Bu, 1998-ci ildə baş verib. Sonrakı dörd qarşılaşmanın üçündə isə millimiz rəqibini məğlub etməyi bacarıb. Hazırda komandamız heyətin gücünə, futbolçuların fərdi keyfiyyətlərinə görə Lixtenşteyndən açıq şəkildə üstündür. Millimizin D Liqasındakı məqsədi qrupda ilk pilləni tutmaqdırsa, Lixtenşteynlə oyunlarda maksimum xal toplamaq vacibdir.

## D Liqası tarixə qovuşur

UEFA Millətlər Liqasında D Liqası ilə bağlı ciddi dəyişiklik edib. Qarşıdakı mövsüm bu divizionun tarixində sonuncu olacaq. Növbəti Millətlər Liqasında artıq D Liqası olmayacaq və hazırda burada qərarlaşan bütün komandalar avtomatik olaraq C Liqasında mübarizə aparacaqlar.

Bu baxımdan, qarşıdakı oyunların turnir nəticəsi baxımından əvvəlki mövsümlərlə müqayisədə xüsusi əhəmiyyəti olmayacaq. Qrup qalibi olmaq millimizə C Liqasına vəsiqə qazandırmayacaq. Bununla belə, bu məqam Litva və xüsusilə Lixtenşteyn kimi rəqiblərlə oyunlarda nəticə gözləntisini dəyişmir. Millimizdən hər iki rəqibə qarşı qələbə, qrupda isə mümkün qədər maksimum nəticə gözlənilir.

Komandamız ilk oyununu sentyabrın 27-də səfərdə Litvaya qarşı keçirəcək. Oktyabrın 1-də Tofiq Bəhramov adına Respublika stadionunda Lixtenşteyni qəbul edəcək millimiz bundan 3 gün sonra, oktyabrın 4-də 8-ci kilometr qəsəbə stadionunda Litva yığması ilə qarşılaşacaq. Son qrup oyunumuz isə noyabrın 13-də səfərdə Lixtenşteynə qarşı olacaq.

Millətlər Liqası ərəfəsində hazırlıq məqsədi ilə milli komanda yoxlama oyununda qüvvəsini sınadı. Bakıda Tacikistanla qarşılaşan yığmamız minimal hesablı qələbə qazandı. Komandamızın heç də ən yaxşı oyununu göstərə bilmədiyi görüşdə Toral Bayramovun cərimə zərbəsi milliyə uğur gətirdi. Onun qüvvətli zərbəsi əvvəlcə qapı tirinə, sonra rəqib qapıçıya dəyərək tora qovuşdu.